# DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.





“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 147 (6111) 27 avqust 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Buzovnada yenidən tikilən yataqxana binasının açılışında iştirak ediblər



Bax 2



## “Müasirləşən və yeniləşən Azərbaycanı Mehriban Əliyeva fenomenindən kənarda təsəvvür etmək qeyri-mümkündür”

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində Azərbaycanın Birinci xanımı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın doğum günü münasibətilə paylaşım edib. Əli Əhmədov statusunda qeyd edib: “Mehriban xanımın Azərbaycanın ictimai-siyasi həyatında böyük missiyası, xalqımıza xas olan xeyirxahlıq və şəfqət kimi dəyərlərin daha geniş inkişaf edib möhkəmləndirilməsində misilsiz xidmətləri hamılıqla etiraf olunur.

Bax 6

## Ceyhun Bayramov: “Danışıqlar konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır”



Ermənistanın işğal etdiyi əzəli Azərbaycan torpaqlarından Azərbaycan əhalisi qovulub, onların evlərində xaricdən, o cümlədən Yaxın Şərqdən köçürülən ermənilər yerləşdirilir. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrov ilə görüşdən sonra keçirilən mətbuat konfransında söyləyib.

Bax 6

## “Yeni keyfiyyətdə məmur obrazının yaranması aktuallaşıb”



“Hazırda ölkəmizdə həyata keçirilən islahatların ən önəmli istiqamətlərindən biri kadr islahatlarıdır. Kadr islahatları mərhələsində biz yeni keyfiyyət dəyişikliklərini müşahidə etməkdəyik. Uzun illər Azərbaycan ictimaiyyətinin alışdığı xüsusi bir məmur obrazı formalaşmışdı, eyni zamanda bu əvvəlki dönəmlərdə Azərbaycan məmurunun mənimsədiyi bir məmur obrazı idi...

Bax 9

## Əli Kərimlinin dar düşüncəsi və siyasi səhvləri



***AXCP sədri Əli Kərimlinin özünü hamıdan artıq “siyasətçi” kimi təqdim etməsi, əslində onun özü barədə həddindən artıq yüksək fikirlərdə olduğunu nümayiş etdirsə də, həqiqətdə bu adamın ümumiyyətlə, siyasi bilgisinin olmadığı zaman-zaman irəli sürdüyü fikirlərində də yer alır. Belə ki, daim qərəz və ölkənin əldə etdiyi istənilən uğurlara düşmən nəzərləri ilə baxan bu ünsürün, hətta ümummilli məsələlərdə belə, qısqanclıqla***

Bax 14

## Sükan arxasında narkotik qəbul edən taksi sürücüsü saxlanılıb



*Cəlilabad şəhəri ərazisində taksi fəaliyyəti ilə məşğul olan “Opel” markalı avtomobilin sürücüsü manevretmə qaydasını pozduğu üçün Cəlilabad RPŞ-nin dövlət yol polisi bölməsinin yol patrul xidmətinin əməkdaşları...*

Bax 13

## YAP İcra Katibliyində “Şəfqətin və xeyirxahlığın ünvanı - Mehriban Əliyeva” mövzusunda videokonfrans keçirilib



Bax 7

Avqustun 26-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “Şəfqətin və xeyirxahlığın ünvanı - Mehriban Əliyeva” mövzusunda videokonfrans keçirilib. Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün respublikamızın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, Yeni Azərbaycan...

## Elşən Musayev: “Ümid edirik ki, Rusiyanın Müdafiə naziri Sergey Şoyqu dediklərində səmimidir”



Bax 13

## Erməni ordusunun real vəziyyəti: könüllü alaylarının yaradılması nəyi sübut edir?



Bax 12

## “Mançester Yunayted” bu hücumçu üçün “Barselona”ya 200 milyon avro təklif etdi!



Bax 16

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Buzovnada yenidən tikilən yataqxana binasının açılışında iştirak ediblər







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışında iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldular.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, binadakı mənzillər 1, 2 və 3 otaqlıdır. Yeni yataqxana binası "Azəriqaz" QSC-nin "Bakqazmaş" zavodunun qəzalı vəziyyətdə olan beşmərtəbəli yataqxanasının yerində inşa edilib. Heydər Əliyev Fondunun nümayəndələri 2019-cu il noyabrın 11-də qəzalı vəziyyətdə olan binaya baxış keçirib və sakinlərlə görüşüblər. Həmin vaxt binanın qəzalı və yaşayış üçün təhlükəli vəziyyətdə olduğu müəyyənləşdirilib. Sakinlər dərhal kirayə mənzillərə yerləşdirilib, 2019-cu ilin dekabr ayından etibarən 8 ay ərzində inşaat işləri aparılıb.

Heydər Əliyev Fondunun layihəsi çərçivəsində tikilən binadakı mənzillər tam təmirlidir və zəruri avadanlıqla təchiz olunub. Sakinlər onlar üçün yaradılan yüksək şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

# Bakının Qala qəsəbəsində 216 nömrəli tam orta məktəb üçün yeni bina inşa edilib

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məktəb binasının açılışında iştirak ediblər*



***Bakının Xəzər rayonunun Qala qəsəbəsində yeni inşa olunan 216 nömrəli tam orta məktəb binasının avqustun 26-da açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***



Dövlətimizin başçısı və birinci xanım yeni təhsil ocağında yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, 216 nömrəli tam orta məktəb 624 şagird yerlikdir. Təhsil müəssisəsində 24 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otaqları, hərbi hazırlıq otağı, informatika kabineti, idman və akt zalları, kitabxana və yeməkxana fəaliyyət göstərir. Məktəbdə videomüşahidə sistemi və fiber-optik internet quraşdırılıb.



Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunan bu təhsil müəssisəsinin həyətində geniş abadlıq işləri aparılıb.





# İlham Əliyev: MDBMİ-nin rektoru olmaq böyük missiyadır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru Anatoli Torkunovun 70 illik yubileyi münasibətilə "MGIMO Journal"a müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



ТОРКУНОВ | 1980–1990

## ИЛЬХАМ АЛИЕВ: «БЫТЬ РЕКТОРОМ МГИМО — ВЕЛИКАЯ МИССИЯ»

Ильхам Гейдарович Алиев, президент Азербайджанской Республики, выпускник МГИМО 1982 года, повторил путь Анатолия Васильевича Торкунова с разницей в десять лет. Если будущий ректор окончил факультет МО и стал аспирантом в 1972 году, то будущий глава азербайджанского государства — в 1982-м. Оба были перспективными молодыми учеными, преподавателями, а затем их траектории разошлись. Но они всегда держали друг друга в поле зрения, а спустя годы возникло плодотворное сотрудничество, которое выразилось в проведении в Баку в 2013 году первого Международного форума выпускников МГИМО и других начинаниях.

Московский государственный институт международных отношений — один из ведущих вузов не только в России, но и в мире, обладающий глубокими и прочными традициями. На протяжении долгих лет его возглавляет Анатолий Васильевич Торкунов, чьи заслуги в становлении и развитии этого высшего учебного заведения как одного из авторитетных центров подготовки высококвалифицированных дипломатических кадров неоспоримы.

Анатолий Васильевич прошел огромный путь от преподавателя до ректора этого престижного вуза. На посту руководителя он не только сохранил и приумножил лучшие традиции МГИМО, но и внес большой вклад в укрепление его позиций и обеспечение конкурентоспособности в мировом образовательном пространстве. Во многом благодаря его стараниям сегодня МГИМО — это бренд мирового уровня.

Анатолий Васильевич Торкунов также является общественным деятелем и ученым, известным не только в России, но и далеко за ее пределами. Мы неоднократно встречались с Анатолием Васильевичем, и могу сказать, что это человек глубокой эрудиции, широких познаний, профессионал, генерирующий новые интересные идеи.

Около 15 лет моей жизни были связаны с МГИМО. Это учеба, потом аспирантура, преподавательская работа. Это незабываемые годы, годы молодости, становления. Знания, которые мною были получены в МГИМО, помогают мне сегодня в моей работе.

Я был инициатором проведения первого Форума выпускников нашего вуза, который прошел в Баку несколько лет назад. Я также участвовал в торжественных мероприятиях, посвященных 60-летию МГИМО.

Наши жизненные пути с Анатолием Васильевичем во многом схожи: и он, и я оканчивали этот вуз, поступили в аспирантуру и преподавали там. Судьба распорядилась так, что мне пришлось уйти из МГИМО, Анатолий Васильевич связал свою жизнь с альма-матер.

Анатолию Васильевичу Торкунову, возглавившему МГИМО в трудные времена, выпала миссия бережно сохранить все лучшее, что было создано его предшественниками, не дать потеряться этому достоянию и на таком фундаменте сформировать один из лучших вузов мира, крупнейший научный и образовательный центр.

**Анатолий Васильевич не только сохранил и приумножил лучшие традиции МГИМО, во многом благодаря его стараниям сегодня МГИМО — это бренд мирового уровня**

**MJ: Сегодня вы — глава азербайджанского государства, Анатолий Васильевич — ректор нашей альма-матер. Но есть нечто важное, что вас с ним объединяет, — великая миссия. Вы продолжили дело своего отца, уважаемого Гейдара Алиевича, который принял страну в 1993 году, уберег ее и превратил Азербайджан в современное динамичное государство. Анатолий Васильевич в 93-м принял на себя руководство МГИМО, уберег институт от язв безвременья, возродил и укрепил его бренд, превратил вуз в университет с уникальным образовательным качеством. Поделитесь, пожалуйста, своими мыслями об этом.**

Сегодня в нашей стране продолжается политика Гейдара Алиева, благодаря которой Азербайджан состоялся как независимое государство, занял достойное место на карте мира, в стране была установлена общественно-политическая стабильность, создана прочная база для масштабных преобразований, привлечены многомиллиардные иностранные инвестиции, определены основные направления внутренней и внешней политики. Сейчас Азербайджан успешно развивается во всех сферах.

Я горжусь тем, что Азербайджан завоевал большой авторитет на международной арене. Об этом свидетельствует то, что наша страна при поддержке 155 государств мира была избрана непостоянным членом Совета Безопасности ООН на 2012–2013 годы. Азербайджан единогласным решением всех 120 стран — членов Движения неприсоединения был избран председателем этой второй крупнейшей после ООН международной структуры мира. В октябре прошлого года в Баку был проведен саммит Движения неприсоединения. Осенью прошлого года наша страна также приняла председательство в Совете сотрудничества тюркоязыч-

68 MJ #2/2020

#2/2020 MJ 69

Azərbaycan Respublikasının Prezidenti, 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olmuş İlham Heydər oğlu Əliyev Anatoli Vasilyeviç Torkunovun yolunu 10 il fərqlə təkrar edib. Belə ki, gələcək rektor 1972-ci ildə, Azərbaycan dövlətinin gələcək rəhbəri isə 1982-ci ildə Beynəlxalq münasibətlər fakültəsini bitirib və aspirant olub. Hər ikisi perspektivli gənc alimlər, müəllimlər olub, sonra isə onların trayektoriyaları ayrılıb. Lakin onlar həmişə bir-birini diqqət mərkəzində saxlayıb, illər keçdikdən sonra səmərəli əməkdaşlıq yaranıb, bu əməkdaşlıq 2013-cü ildə Bakıda MDBMİ məzunlarının Birinci Beynəlxalq Forumunun keçirilməsində və digər təşəbbüslərdə ifadə olunub.

Prezident İlham Əliyev: Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu nəinki Rusiyada, hətta dünyada dərin və möhkəm ənənələrə malik olan aparıcı ali məktəblərdən biridir. Uzun illərdir ki, bu ali məktəbə Anatoli Vasilyeviç Torkunov rəhbərlik edir. Bu ali məktəbin yüksək ixtisaslı diplomat kadrların hazırlanması üzrə nüfuzlu mərkəzlərdən biri kimi təşəkkülündə və inkişafında onun xidmətləri danılmazdır.

Anatoli Vasilyeviç bu nüfuzlu ali məktəbin müəllimindən rektoruna qədər böyük həyat yolu keçib. O, MDBMİ-nin rəhbəri vəzifəsində bu ali məktəbin ən yaxşı ənənələrini qoruyub saxlamaq və artırmaqla bərabər, dünya təhsil məkanında onun mövqelərinin möhkəmlənməsinə və rəqabət qabiliyyətinin təmin edilməsinə böyük töhfə verib. Bu gün MDBMİ çox cəhətdən onun səyləri sayəsində dünya səviyyəli brend sayılır.

Anatoli Vasilyeviç Torkunov təkcə Rusiyada deyil, onun hüdudlarından kənarda da məşhur ictimai xadim və alim kimi tanıyırlar. Biz Anatoli Vasilyeviç ilə dəfələrlə görüşmüşük və deyə bilərəm ki, o, dərin erudisiyalı, hərtərəfli biliklərə malik insan, maraqlı yeni ideyalar yaradan peşəkardır.

Mənim həyatımın təqribən 15 ili MDBMİ ilə bağlı olub: təhsil, sonra aspirantura, müəllimlik işi. Bu, unudulmaz gənclik, formalaşma illəri idi. MDBMİ-də aldığım biliklər bu gün də fəaliyyətimdə mənə kömək edir.

Bizim ali məktəbin məzunlarının bir neçə il bundan əvvəl Bakıda Birinci Forumunun keçirilməsinin təşəbbüskarı mən olmuşam. Mən həm də MDBMİ-nin 60 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmişəm.

Anatoli Vasilyeviç ilə bizim həyat yollarımız çox cəhətdən oxşardır: o da, mən də bu ali məktəbi bitirmişik, aspiranturaya daxil olmuşuq, orada dərs demişik. Taleyin qismətindən mən MDBMİ-dən getməli oldum, Anatoli Vasilyeviç isə öz həyatını almamater ilə bağladı.

Çətin dövrdə MDBMİ-yə rəhbərlik etmiş Anatoli Vasilyeviç Torkunovun üzərinə onun sələfləri tərəfindən yaradılmış ən yaxşı nə varsa, hamısını qoruyub saxlamaq, bu sərvətin itirilməsinə imkan verməmək və belə bir təməl üzərində dünyanın ən yaxşı ali məktəblərindən birini, ən iri elm və təhsil mərkəzini formalaşdırmaq missiyası düşüb.

MJ: Bu gün Siz Azərbaycan dövlətinin rəhbəri, Anatoli Vasilyeviç isə bizim almamaterin rektorudur. Onunla Sizi birləşdirən çox mühüm bir amil var - böyük missiya. Siz 1993-cü ildə ölkəni qəbul etmiş, onu qoruyub saxlamış və Azərbaycanı müasir dinamik dövlətə çevirmiş atanız, möhtərəm Heydər Əliyevin işini davam etdirdiniz. Anatoli Vasilyeviç 1993-cü ildə MDBMİ-yə rəhbərliyi öz üzərinə götürdü, onu mürəkkəb dövrün bəlalarından qorudu, bu ali məktəbin brendini bərpa etdi və möhkəmləndi, onu nadir təhsil keyfiyyətlərinə malik olan universitetə çevirdi. Xahiş edirəm, bu barədə öz fikirlərinizi bölüşün.

Prezident İlham Əliyev: Bu gün ölkəmizdə Heydər Əliyevin siyasəti davam etdirilir. Bu siyasətin sayəsində Azərbaycan müstəqil dövlət kimi formalaşıb, dünya xəritəsində layiqli yer tutub, ölkədə ictimai-siyasi sabitlik bərqərar olub, genişmiqyaslı dəyişikliklər üçün möhkəm baza yaradılıb, milyardlarla xarici investisiya cəlb olunub, daxili və xarici siyasətin əsas istiqamətləri müəyyən edilib. İndi Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir.

Mən fəxr edirəm ki, Azərbaycan beynəlxalq arenada böyük nüfuz qazanıb. Bunu o da sübut edir ki, bizim ölkəmiz dünyanın 155 dövlətinin dəstəyi ilə 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Qoşulmama Hərəkatının üzvləri olan bütün 120 ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-dən sonra dünyada ikinci ən böyük bu beynəlxalq qurumun sədri seçilib. Ötən ilin oktyabr ayında Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçirilib. Həmin ilin payızında ölkəmiz həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında sədrliyi qəbul edib. Biz dünya birliyinin məsuliyyətli üzvü kimi beynəlxalq təşkilatlarda sədrlik məsələsinə formal yanaşmırıq, çalışırıq ki, bu sədrlik səmərəli olsun və üzv ölkələrə xeyir gətirsin. Məsələn, dünya koronavirus pandemiyası ilə üzləşdiyi dövrdə mənim təşəbbüsümlə Qoşulmama Hərəkatının və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirilib. Bu görüşlərdə təhlükəli virusa qarşı mübarizə ilə bağlı məsələlər müzakirə edilib. Azərbaycan Qoşulmama Hərəkatının üzvü olan ölkələr adından BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyasının çağırılması təşəbbüsünü irəli sürdü. Bu təşəbbüsü 130-dan çox dövlət dəstəklədi.

Pandemiya dövründə biz beynəlxalq həmrəylik nümayiş etdirərək 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü ianə vermişik.

Bu gün Azərbaycan dünya multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Ölkəmiz Avropa ilə Asiya arasında həm coğrafi, həm mədəni, həm də siyasi körpüdür. Biz, eyni zamanda, həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan nadir ölkələrdən biriyik. 2008-ci ildə biz Avropa Şurasının üzvü olan ölkələrin Mədəniyyət nazirlərinin Bakıda keçirilən iclasına İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin müvafiq nazirlərini dəvət etdik. Sonra 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatının iştirakçısı olan ölkələrin Mədəniyyət nazirlərinin iclasına Avropa Şurasının üzvü olan ölkələrin Mədəniyyət nazirləri dəvət edildi. Beləliklə, bizim "Bakı Prosesi" adlı, dinlərarası və mədəniyyətlərarası dialoq prinsiplərinə əsaslanan təşəbbüsümüz yarandı. Bu illər ərzində "Bakı Prosesi" milliyyəti, mədəniyyəti, dini etiqadı müxtəlif olan insanlar arasında fikir mübadiləsi üçün səmərəli platforma imici qazanıb.

"Bakı Prosesi" BMT və dünyanın digər aparıcı təşkilatları tərəfindən dəstəklənir.

MJ: Anatoli Vasilyeviç Beynəlxalq münasibətlər fakültəsinin dekanı, prorektor vəzifələrində işlədiyi vaxt yəqin ki, Siz müəllim kimi onunla dəfələrlə ünsiyyətdə olmusunuz. Necə deyərlər, qeyri-adi, istedadlı bir administratorun formalaşmasının şahidi olmusunuz. Bu barədə bir səciyyəvi əhvalat danışa bilərsinizmi?

Prezident İlham Əliyev: Bir müddət Anatoli Vasilyeviç ilə eyni kafedrada işləmişik. Buna görə də onu çoxdan tanıyıram. Diplomat, alim, rəhbər kimi yüksək peşəkar keyfiyyətlərə malik olan Anatoli Vasilyeviç həmişə çox səmimi, xeyirxah, ünsiyyətdə xoş təsir bağışlayan bir insan idi, bu gün də eləcə qalır. Bilirəm ki, kollektiv onu dəstəkləyir, tələbələr ona hörmət edir və sevirlər. Belə olmasaydı, o, bu qədər uzun müddət MDBMİ-yə rəhbərlik edə bilməzdi. Anatoli Vasilyeviçi həm də ona görə qiymətləndirirəm ki, o, qondarma yenidənqurma dövründə qara yaxılan, mənəvi terrora məruz qalan ali məktəbimizin şanlı ənənələrini bərpa edib. Təəssüf ki, mənim oxuduğum və müəllimlik etməyə başladığım dövrdə rektor olmuş, həmişə, bu gün də böyük hörmət bəslədiyim Nikolay İvanoviç Lebedevdən sonra və Anatoli Vasilyeviç Torkunova qədər bizim ali məktəbə rəhbərlik etmiş insanlar MDBMİ-ni ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində cərəyan edən mənfi proseslərin təsirindən qoruya bilmədilər. 1992-ci ildən bu instituta başçılıq edən Anatoli Vasilyeviç bu gün dünyanın aparıcı ali məktəblərindən biri olan MDBMİ-nin imicini bərpa etdi və möhkəmlətdi.

*Ardı Səh. 4*

# İlham Əliyev: MDBMİ-nin rektoru olmaq böyük missiyadır

Əvvəli-Səh-3

Səciyyəvi əhvalat məsələsinə gəldikdə isə demək istəyirəm ki, 1990-cı illərin lap əvvəlində oxuduğum, aspiranturanı bitirdiyim və 15 ilə yaxın işlədiyim institutdan getməyə məcbur oldum. Səbəb bu idi ki, SSRİ-nin ovaxtkı rəhbərliyinin yanlış daxili və xarici siyasət kursuna qarşı prinsipial mövqe tutan atam Heydər Əliyev az qala xalq düşməni hesab edilirdi. O, təqiblərə məruz qalır, sovet mətbuatında ona qarşı şəxsən Sov.İKP MK-nın baş katibi tərəfindən qızışdırılan kəskin qarayaxma və böhtan kampaniyası aparılırdı. MDBMİ-nin rəhbərliyi mənə bildirdi ki, Heydər Əliyevin oğlu siyasi səbəblər üzündən bu ali məktəbdə dərs deyə bilməz. Mənim üçün çox çətin olan həmin dövrdə Anatoli Vasilyeviç mənə həmişə mənəvi dəstək göstərirdi. Əminəm ki, əgər həmin vaxt rektor o olsaydı, mənim getməyimə yol verməzdi. Onda mənim taleyim başqa cür olardı. Lakin necə deyərlər, nə olursa, yaxşılığa doğrudur.

MJ: Siz bizim jurnala verdiyiniz müsahibələrin birində demisiniz: "MDBMİ-nin yubileyi bizim ailənin də bayramıdır". Yəqin onu nəzərdə tuturdunuz ki, qızınız Leyla da bizim universiteti bitirib. Anatoli Vasilyeviç də belə deyə bilər. Onun qızı Yekaterina MDBMİ-ni bitirib və bu ali məktəbin kafedralarından birində işləyir. MDBMİ-nin məzunlarının çoxu da belə deyə bilər! Sizə elə gəlmirmi ki, sözün yaxşı mənasında, bu ailə ənənələri ən mühüm dəyərlərdən biridir və onların sayəsində MDBMİ yubileydən-yubileyə daha qüdrətli və dinamik ali məktəbə çevrilir?

Prezident İlham Əliyev: Bizim həyat yollarımızın daha bir kəsişməsini düzgün qeyd etdiniz. Bəli, mənim qızım Leyla Əliyeva da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, MDBMİ-nin Azərbaycan Klubunun prezidenti olub və Azərbaycanlı Məzunlar Şurasının sədridir. Hazırda Leyla həm də Moskvada rus dilində nəşr edilən "Baku" jurnalına rəhbərlik edir. Bu jurnal oxucuları Azərbaycan xalqının tarixi, mədəniyyəti və ənənələri ilə tanış edir. Leyla Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığın, dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işinə böyük töhfə verir.

Leyla Rusiya Federasiyası ilə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə, iqtisadi əlaqələrin inkişafına, rus dilinin və mədəniyyətinin qorunub saxlanmasına və xaricdə populyarlaşdırılmasına verdiyi töhfəyə görə 2015-ci ildə "Puşkin" ordeni ilə təltif edilib. Yüksək mükafatı ona şəxsən Vladimir Vladimiroviç Putin təqdim edib.

Leylanın vitse-prezident olduğu Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2013-cü ildə Həştərxanda Müqəddəs Mələksima knyaz Vladimirə abidə qoyulub. Heydər Əliyev Fondu tərəfindən Rusiyanın bu regionunda reallaşdırılmış layihələrə görə Leyla "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilib. Elə həmin 2013-cü ildə Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin sərəncamı ilə Leyla III dərəcəli "Müqəddəs Mələksima knyaginya Olqa" ordeninə layiq görülüb.

Bilirəm ki, Anatoli Vasilyeviç Torkunovun qızı Yekaterina da bu ali məktəbi bitirib və siz dediyiniz kimi, hazırda MDBMİ-nin kafedralarından birində işləyir. Yəqin MDBMİ tarixində belə nümunələr az deyil ki, uşaqlar qəlblərinin istəyi ilə vaxtilə onların valideynlərinin bitirdiyi ali məktəbi seçirlər. Hesab edirəm ki, belə varisliyin olması çox gözəldir.

MJ: Anatoli Vasilyeviçin 70 yaşı tamam olur, MDBMİ-nin isə 75 yaşı yaxın vaxtlarda tamam olub. Bununla əlaqədar bizim ümumi böyük yubiley kontekstində ona nə arzu edərdiniz?

Prezident İlham Əliyev: Mən ona möhkəm cansağlığı, bütün işlərində və təşəbbüslərində uğurlar, tükənməz enerji, ailə xoşbəxtliyi arzu etmək istərdim. Bu yaxınlarda 75 illiyini qeyd etmiş MDBMİ-yə isə yeni nailiyyətlər diləyirəm. İnanıram ki, MDBMİ Anatoli Vasilyeviçin rəhbərliyi ilə tanınmış fundamental təhsil mərkəzi və dünya səviyyəli diplomatik kadrların yetişdirildiyi ali məktəb kimi qalacaq.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suraxanı rayonundakı Səttar Bəhlulzadə adına Mədəniyyət Evinin açılışında iştirak ediblər



Avqustun 26-da Bakının Suraxanı rayonunda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan Mədəniyyət Evinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, 1926-cı ildə inşa edilmiş bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub. Ümumi sahəsi 8662 kvadratmetr olan dördmərtəbəli binada rəqs ansamblı, vokal-instrumental qrup fəaliyyət göstərir. Burada 612 tamaşaçı yeri olan konsert-tamaşa zalı və universal səhnə, rəqs ansamblının və orkestrin məşq zalları, solistlər üçün məşq və qrim otaqları, multimedia mərkəzi, səsyazma studiyası, sərgi salonu, dərnək otaqları, texniki və köməkçi təyinatlı otaqlar yaradılıb. Mədəniyyət Evinin 2 hektar həyətyanı ərazisində abadlıq işləri həyata keçirilib, açıq hava istirahət guşələri salınıb.







# Mehriban Əliyevanın muğam sənətinin inkişafında əvəzsiz xidmətləri var

***Bu gun milli irsimizin qorunub saxlanması və təbliği yolunda misilsiz xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın doğum günüdür.***



SİA-nın məlumatına görə, muğam sənətinin inkişafında əvəzsiz xidmətləri olan UNESCO və İSESCO-nun xoşməramlı səfiri hörmətli Mehriban xanım Əliyevanın geniş bilik və maraq dairəsi, yaradıcılıq enerjisi, respublikanın tərəqqisi naminə qurub-yaratmaq əzmi məhsuldar dövləti fəaliyyətin əsasına çevrilib. Böyük təşkilatçılıq istedadı Prezidentimiz İlham Əliyevin etibarlı silahdaşı kimi ümumxalq sevgisi qazandırıb.

Yüksək peşəkarlıq və insani keyfiyyətləri, böyük idarəçilik və siyasi təcrübə Mehriban xanıma təkcə öz ölkəmizdə deyil, onun hüdudlarından kənarda da layiqli nüfuz qazandırıb. Artıq bir neçə ildir ki, Beynəlxalq Muğam Mərkəzi 26 avqust tarixini ikiqat bayram kimi qeyd edir. Bu ikiqat bayramın qeyd edilməsi də birbaşa Mehriban xanımın fəaliyyəti ilə əlaqəlidir.

Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi də qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqisi festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Azərbaycan muğamının müasir tarixində Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu gün UNESCO-nun qərargahında böyük Azərbaycan ziyalılarının yubileyləri qeyd olunur, Azərbaycan mədəniyyətini təbliğ edən çoxlu sayda tədbirlər keçirilir.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında UNESCO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri Siyahısına daxil edilmiş Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. 2009-cu ilin martında istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzində gənc ifaçılar Azərbaycan musiqi mədəniyyətinin mühüm qismini təşkil edən muğam sənətinin incəliklərinə yiyələnirlər. Bu Mərkəzin açılması muğam dünyası üçün bir bayrama çevrilərək əsl musiqi hadisəsi oldu. Sevindirici haldır ki, indi yalnız Bakıda deyil, Heydər Əliyev Fondunun təşəbbüsü ilə bölgələrimizdə, Qarabağ torpağında, işğal altındakı torpaqlarımızla sərhəd şəhərlərimizdə də istedadlı gəncləri yetişdirmək və muğam sənətinə töhfə vermək üçün gözəl muğam mərkəzləri istifadəyə verilib. Bu gün, tarixdə heç vaxt olmadığı kimi, muğam Azərbaycanın dünyaya töhfəsi kimi sevilir və tanınır. Bu da təbii ki, Prezident İlham Əliyevin və Mehriban xanımın işıqlı və parlaq fəaliyyətinin nəticəsidir. Muğam sənəti, bu sənətin əsas alətləri - tar, kamança UNESCO-nun Ümumdünya irsi siyahısındadır. Bunun özü böyük uğurdur və muğamın təbliğində vacib rol oynayır. Dünyanın elə bir ölkəsi yoxdur ki, muğam ifaçıları mız orada çıxış etməsinlər. Heydər Əliyev Fondu dünyada musiqimizin təbliğatı ilə məşğuldur və böyük tədbirlər keçirir. Belə olduğu təqdirdə, Azərbaycan muğamı dünyada daha çox tanınır. Dünyanın məşhur musiqiçiləri ilə bizim musiqiçilərimiz arasında sıx əlaqə, dostluq münasibətləri yaranır. Beynəlxalq Muğam Mərkəzimizdə irimiqyaslı layihələr, elmi konfranslar, dəyirmi masalar, konsertlər, böyük tədbirlər keçirilir. Beynəlxalq Muğam Festivalının məhz Beynəlxalq Muğam Mərkəzində keçirilməsi böyük əhəmiyyət daşıyır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən Muğam Televiziya Müsabiqəsi bütün dünyaya televiziya vasitəsilə musiqimizi və muğamımızı tanıtdıran misilsiz bir layihədir. Burada neçə-neçə istedadlı gənclər tanınırlar. Bu müsabiqə çərçivəsində 140 tanınmış ifaçı yetişib. Hansı ki, bu gün onlar Azərbaycanı dünyada uğurla və böyük məsuliyyət hissi ilə təmsil edirlər və onların əksəri bu gün Beynəlxalq Muğam Mərkəzinin solistləridir. Bu günə kimi gənc xanəndələrə bu qədər diqqət və qayğı demək olar ki, ayrılmayıb. Dövlət hər zaman onların yanındadır. Milli irsimiz, muğamımız həm qızıl, həm də intibah dövrünü yaşayır.

Bu əlamətdar gün münasibəti ilə Beynəlxalq Muğam Mərkəzinin kollektivi sizi təbrik edir, möhkəm can sağlığı, xoşbəxtlik, əmin-amanlıq, ölkəmizin rifahı naminə qarşıya qoyduğunuz məqsədlərə nail olmaqda yeni uğurlar, daim sevdiklərinizin ətrafında sevinc dolu xoşbəxt günlər arzulayır!

# Ərəb mətbuatı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalələr dərc edib



PARTNER CONTENT

REACH by GULF NEWS

**Working for the people of Azerbaijan**

First Vice-President, Mehriban Aliyeva, has been contributing to the country's development

Reach by Gulf News

Sponsored by

Image Credit: Supplied

Direct involvement in the development of modern and independent Azerbaijan, solution for social issues, adherence to the ideas of mercy and morality, a constant desire to extend a helping hand and to do good – all these form the backbone of the life philosophy of the First Vice-President of the Republic of Azerbaijan, President of the Heydar Aliyev Foundation, and Unesco and Isesco Goodwill Ambassador, Mehriban Aliyeva. Working side by side with President Ilham Aliyev, his life companion and closest ally, Aliyeva is making a great contribution to the dynamic development of the country.

Aliyeva has successfully led the Heydar Aliyev Foundation for 16 years. The revival and expansion of the charity traditions of the Azerbaijani people became possible thanks to the personal example of the President of the Heydar Aliyev Foundation.

For 16 years, Aliyeva has honourably carried out the responsibilities of being a Unesco Goodwill Ambassador. Being a Goodwill Ambassador of Isesco at the same time, she has tirelessly involved herself in activities to inform the world about the historical and cultural heritage of Azerbaijan and its realities.

***Birləşmiş Ərəb Əmirliklərinin mətbuatı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalələr dərc edib.***

AZƏRTAC xəbər verir ki, nüfuzlu "Gulf News" nəşrində dərc edilən "Azərbaycan xalqı naminə fəaliyyət" sərlövhəli məqalədə qeyd olunur ki, müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, yardıma möhtac olanların dadına yetmək Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. O, Prezident İlham Əliyevlə çiyin-çiyinə ölkənin dinamik inkişafına böyük töhfə verir.

Məqalədə Mehriban Əliyevanın 16 il müddətində Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESCO və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi misilsiz töhfədən bəhs edilir. Qeyd olunur ki, məhz onun səyləri nəticəsində 2019-cu ilin iyulunda UNESCO Dünya İrs Komitəsinin 43-cü sessiyası Azərbaycanda keçirilib.

"Gulf News" yazır ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində əsas diqqəti sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə yönəldib. Qısa müddətdə 300 mindən çox qaçqın və məcburi köçkünün həyat şəraiti yaxşılaşdırılıb, bir il ərzində 5293 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Bundan başqa, Aprel döyüşlərində yaralanan əsgər və zabitlərin müalicəsi təşkil edilib.

Məqalədə Mehriban Əliyevanın rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirləri, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən də bəhs olunur.

Azərbaycanın Birinci vitse-prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində də müstəsna xidmətlərindən bəhs edən "Gulf News", eyni zamanda, Heydər Əliyev Fondunun təşəbbüsü ilə müxtəlif ölkələrdə təşkil edilən tədbirləri də diqqətə çatdırır.

Məqalədə Azərbaycanın Birinci vitse-prezidentinin idmanın inkişafı sahəsində gördüyü işlərdən də bəhs edilir, onun Fransa, İtaliya, Polşa, Rusiyanın yüksək mükafatlarına layiq görüldüyü vurğulanır.

Azərbaycanın Birinci vitse-prezidenti haqqında məqalələr "Dubai Hospitality News", "Almanara", "Meri Media", "Dubai Global News", "Iconic Lady" və s. nəşrlərdə də dərc edilib.

# "Səs" qəzeti artıq yeni formatda


EVDƏ QAL, SAĞLAM QAL!

DİQQƏT!

SƏS QƏZETİNDƏN NÖVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bölməsinə daxil olub QR kodunu telefonunuza oxudaraq ekrana gələn linkə daxil olun.

QEYD: Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 145 (6109) 25 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı

Sahibə Qafarova: "Türkiyə ilə dostluğumuz sarsılmazdır"

Avqustun 24-də Milli Məclisin Sədri Sahibə Qafarovanın Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla növbəti telefon danışığı olub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığında Spiker həmkarını və onun simasında bütün türk xalqını Türkiyə tarixinin ən böyük təbii qaz yatağının kəşf olunması münasibətilə həm öz adından, həm də Milli Məclisin...

Bax 7

İlham Əliyev: "Prezident başda olmaqla bütün dövlət məmurları xalqın xidmətçiləridir"

Düşmənin uğursuz diversiya cəhdi: Tovuz zəfərinin davamı!

Bax 7

Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti və həmin siyasətin təməlində dayanan təxribatçılıq cəhdləri davam etməkdədir. Bu cəhdlərin hər birinin arxasında təcavüzkarlıq faktorları ilə yanaşı, həm də digər kirli maraqların dayandığı şübhəsizdir. O da sirr deyil ki, artıq uzun illərdir ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan Dağlıq...

Bax 2

Prezident İlham Əliyev Faiq Qürbətovu Biləsuvar, Elmir Bağırovu isə Saatlı rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib

"Səs" qəzeti daim yeniliklərlə oxucularının qarşısına çıxır. Qəzet növbəti yeni layihəsini təqdim edib. Bununla bağlı keçirilən tədbirdə çıxış edən qəzetin baş redaktoru Bəhruz Quliyev bildirib ki, qəzet yarandığı tarixindən bu günə qədər həyata keçirdiyi yenilikləri ilə oxucuların marağına səbəb olub. "Səs"in Ulu öndəri sevənlərin qəzeti olduğunu və dahi liderin ideyalarını həyata keçirən bir qəzet olduğunu söyləyən baş redaktor onu diqqətə çatdırıb ki, qəzet köhnə təcrübələrdən bəhrələnərək yeniliklərlə ayaqlaşmağa çalışıb.

"Səs"in reallaşdırdığı yenilikləri xatırladan baş redaktor artıq qəzetin yeni formatda çap olunduğunu söyləyib və bu yeniliyin Azərbaycan mediasında bir ilk olduğunu bildirib.

Belə ki, "Səs" qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq VİDEO-qəzet formatında nəşrə başlayıb. Video xəbəri izləmək üçün telefonunuzun kamera bölümünə daxil olub QR kodunu telefonunuza oxudaraq ekrana gələn linkə daxil ola bilərsiniz.

Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videogörüntülərə baxmaq mümkündür.

# "Müasirləşən və yeniləşən Azərbaycanı Mehriban Əliyeva fenomenindən kənarda təsəvvür etmək qeyri-mümkündür"



Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində Azərbaycanın Birinci xanımı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın doğum günü münasibətilə paylaşım edib. Əli Əhmədov statusunda qeyd edib: "Mehriban xanımın Azərbaycanın ictimai-siyasi həyatında böyük missiyası, xalqımıza xas olan xeyirxahlıq və şəfqət kimi dəyərlərin daha geniş inkişaf edib möhkəmləndirilməsində misilsiz xidmətləri hamılıqla etiraf olunur. Dünyanı lərzəyə salan amansız koronavirus pandemiyasına qarşı ölkəmizdə səmərəli mübarizənin təşkilinə, xalqımızın sağlamlığının qorunmasına verdiyi əvəzsiz töhfələr bir daha göstərdi ki, Mehriban xanım minlərlə insan üçün əsl ümid çırağı, şəfqət və xeyirxahlıq ünvanıdır.

Mehriban xanımın xidmətlərinin daha geniş coğrafiyanı əhatə etdiyini ayrıca vurğulamaq istəyirəm. Müasirləşən və yeniləşən Azərbaycanı, onun dünyaya qovuşan ictimai və mədəni həyatını Mehriban Əliyeva fenomenindən kənarda təsəvvür etmək qeyri-mümkündür. Təsadüfi deyildir ki, onun beynəlxalq aləmdə geniş fəaliyyəti Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dünyaya təqdimatının parlaq nümunəsi hesab olunur. Məmnunluq hissi ilə qeyd etmək yerinə düşər ki, Birinci vitse-prezident vəzifəsində səmərəli fəaliyyəti Azərbaycanın uğurlarını artırır, insanların gələcəyə inamını daha da gücləndirir. Mehriban xanımı doğum günü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı və xoşbəxtlik, doğma Vətənimizin tərəqqisi yolunda işlərində daha böyük uğurlar arzulayıram".

# Ceyhun Bayramov: "Danışıqlar konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır"



Ermənistanın işğal etdiyi əzəli Azərbaycan torpaqlarından Azərbaycan əhalisi qovulub, onların evlərində xaricdən, o cümlədən Yaxın Şərqdən köçürülən ermənilər yerləşdirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrov ilə görüşdən sonra keçirilən mətbuat konfransında söyləyib. O vurğulayıb ki, bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Danışıqlar prosesinin imitasiya xarakteri daşımamasının, məhsuldar şəkildə aparılmasının vacibliyini qeyd edən azərbaycanlı nazir deyib: "Biz hesab edirik ki, kifayət qədər ciddi normativ baza mövcuddur və danışıqlar prosesi beynəlxalq təşkilatların qəbul etdikləri sənədlər, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və digər təşkilatların sonrakı illər qəbul etdikləri sənədlər əsasında aparılmalıdır. Bu baxımdan, biz danışıqlar prosesinin davam etdirilməsinin tərəfdarıyıq, lakin hesab edirik ki, danışıqlar olduqca konkret məsələlər ətrafında aparılmalı, imitasiya xarakteri daşımamalı, substantiv olmalıdır".

Ceyhun Bayramov qeyd edib ki, danışıqlar prosesinin pozulmasına yönəldilən bütün hərəkətlər və bəyanatlar beynəlxalq birlik, ilk növbədə, ATƏT-in Minsk qrupu tərəfindən qınanmalıdır. Azərbaycanın danışıqlar prosesindəki konstruktiv mövqeyi real fəaliyyətə söykənir. Ərazilərinin 20 faizinin işğal altında olmasına baxmayaraq, Azərbaycan 30 ilə yaxındır ki, danışıqlar masası arxasındadır. Biz münaqişənin siyasi yolla həllinə tərəfdarıq.

Nazir Sergey Lavrov Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin, pandemiyaya baxmayaraq, cari ilin ilk aylarında artdığını söyləyib. O, regionlar arasında əlaqələrin əməkdaşlığa əsaslı töhfə verdiyini, xüsusilə Həştərxan vilayəti ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsi üçün təkliflərin irəli sürüldüyünü vurğulayıb.

Rusiya XİN-in başçısı növbəti Rusiya-Azərbaycan Regionlararası Forumunun bu ilin sonlarında Azərbaycanda keçiriləcəyini, epidemioloji vəziyyətdən asılı olaraq Rusiyada Azərbaycan Mədəniyyəti Günlərinin tarixinin müəyyən ediləcəyini də vurğulayıb.

# Hakimiyyətlə QHT-lər arasında yeni dialoq başladı



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkənin bir çox fəal qeyri-hökumət təşkilatları rəhbərlərinin daxil olduğu "İctimai Liderlər Platforması"nın üzvləri ilə onlayn görüş keçirib. Bu barədə AZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının İctimaiyyətlə əlaqələr bölməsindən məlumat verilib.

Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev Prezidentin köməkçisi Hikmət Hacıyevə QHT-lərlə görüşdüyünə görə təşəkkür edib və bu təşəbbüsün QHT-hökumət münasibətlərində yeni keyfiyyət mərhələsinin başlanğıcı olacağına və QHT sektoru üçün prioritet məsələlərin həllinə təkan verəcəyinə əminliyini ifadə edib.

Prezidentin köməkçisi Hikmət Hacıyev dövlətimizin başçısı İlham Əliyevin cəmiyyətimizdə QHT-lərin fəaliyyətinə və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsinə xüsusi önəm verdiyini qeyd edib. O, QHT sektorunun ölkəmizin ictimai həyatında fəal iştirakını vurğulayıb, hökumətin QHT-lərlə dialoqun genişlənməsində və QHT-lərin diqqətində olan məsələlərin müzakirəsində maraqlı olduğunu bildirib. Hikmət Hacıyev vətəndaş cəmiyyəti institutlarının ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı, vətənpərvərliyin gücləndirilməsi, milli maraqlarımızın qorunması, həmçinin təhsil, humanitar və ictimai əhəmiyyət daşıyan digər sahələrdə mühüm roluna toxunub, dövlət başçısının qeyd etdiyi kimi, ictimai nəzarət mexanizmlərinin və onun tətbiqinin səmərəliliyinin artırılmasının zəruriliyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov, Müstəqil Hüquq Mərkəzinin sədri Aydın Kərimov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov, D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri Novella Cəfərova, Humanitar Tədqiqatlar İctimai Birliyinin sədri Əvəz Həsənov, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri Səltənət Qocamanlı, "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli, "Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov, "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri İsrayıl İsgəndərov, Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Mirvari Qəhrəmanova, Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Hüquq və İnkişaf İctimai Birliyinin sədri Hafiz Həsənov, Multimediya Sistemləri İctimai Birliyinin sədri Osman Gündüz, "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri İradə Rizazadə, Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, XXI əsr Təhsil Mərkəzi İctimai Birliyinin sədri Etibar Əliyev, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" İctimai Birliyinin sədri Şahin Rəcəbov, "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri Səadət Bənənyarlı, Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyəti İctimai Birliyinin sədri İlqar Orucov və Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının sədri Asif Əsgərli hökumətlə QHT sektoru arasında başlanan yeni dialoq təşəbbüsünü təqdir etdiklərini bildiriblər. QHT sədrləri ictimai sektorun gücləndirilməsi və QHT-lərin gündəliyində olan məsələlərin həlli ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Görüşün sonunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev QHT-lər tərəfindən səsləndirilən əsaslandırılmış fikir və təkliflərin diqqətlə araşdırılacağını və onların həlli istiqamətində müvafiq addımların atılacağını bildirib. Qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# YAP İcra Katibliyində "Şəfqətin və xeyirxahlığın ünvanı - Mehriban Əliyeva" mövzusunda videokonfrans keçirilib









***Avqustun 26-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Şəfqətin və xeyirxahlığın ünvanı - Mehriban Əliyeva" mövzusunda videokonfrans keçirilib.***

Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün respublikamızın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın doğum günü olduğunu bildirib. Əli Əhmədov qeyd edib ki, Mehriban xanım Əliyeva Azərbaycan cəmiyyətində möhtəşəm ictimai missiyanın daşıyıcısı kimi tanınır və qəbul olunur: "Ən qısa şəkildə səciyyələndirsək, Mehriban xanıma humanizm və xeyirxahlıq simvolu adını vermək daha düzgün olardı. Azərbaycanda minlərlə insan Mehriban xanım Əliyevaya ümid çırağı, xeyirxahlıq və humanizm ünvanı kimi yanaşır. Müxtəlif çətinliklərə düşən çoxlu ailələr Mehriban xanım Əliyevanın qayğısı sayəsində çətinliklərdən çıxıblar. Mehriban xanım Əliyevanın böyük humanizmi və xeyirxahlığı COVID-19 pandemiyasının tüğyan etdiyi indiki günlərdə daha bariz özünü nümayiş etdirməkdədir. Azərbaycan ictimaiyyəti onun diqqəti və qayğısı sayəsində neçə-neçə insanların öz sağlamlığına qovuşmasına, ölümün cəngindən xilas olmasına şahidlik edib".

YAP Sədrinin müavini həmçinin qeyd edib ki, Azərbaycanın mədəniyyətinin, incəsənətinin, təhsilinin inkişafı, tariximiz və milli mənəvi dəyərlərimiz də Mehriban xanımın daim diqqətindədir. Heydər Əliyev Fondunun prezidenti kimi onun həyata keçirdiyi möhtəşəm layihələr nəticəsində Azərbaycanın mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərlərimiz yeni inkişaf mərhələsinə yüksəlib. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr xalqımıza və dövlətimizə xidmətin ən gözəl nümunələri sayıla bilər.

Baş nazirin müavini söyləyib ki, müasirləşən və yeniləşən Azərbaycanı, onun dünyaya qovuşan ictimai və mədəni həyatını Mehriban Əliyeva fenomenindən kənarda təsəvvür etmək qeyri-mümkündür. Təsadüfi deyildir ki, onun beynəlxalq aləmdə geniş fəaliyyəti Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dünyaya təqdimatının parlaq nümunəsi hesab olunur.

Əli Əhmədovun sözlərinə görə, Azərbaycanın dünyaya təqdimatı, ölkəmizin təbliği və tanıdılması Mehriban xanım Əliyevanın fəaliyyətinin mərkəzində dayanır: "Onun rəhbərliyi ilə həyata keçirilən layihələr bütün bunlara ən gözəl nümunədir. Dünyada ölkəmizin təbliğ edilməsi baxımından Mehriban xanım Əliyeva Azərbaycan cəmiyyətinin ən böyük elçisi adına layiqdir. O, bu missiyanı uğurla yerinə yetirməkdədir. Respublikamızın Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva Azərbaycan dövlətinin qüdrətinin artmasında, ölkəmizin müasirləşməsində, yeniləşməsində, mühüm layihələrin həyata keçirilməsində böyük töhfələrə malik olan dövlət xadimidir. Azərbaycanın bugünkü inkişafında onun xüsusi rolu var. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə inkişaf siyasətinin həyata keçirilməsində dövlət başçısının ən yaxın silahdaşı və yardımçısı Mehriban xanım Əliyevadır. Bütövlükdə, xalqımız, cəmiyyətimiz Mehriban xanım Əliyevanın timsalında ən fəal ictimai xadimini, ən böyük humanistini və insanpərvər şəxsiyyətini tanıya bilib".

Əli Əhmədov Mehriban xanım Əliyevanı doğum günü münasibətilə təbrik edib, ona fəaliyyətində yeni-yeni uğurlar arzulayıb. Tədbirdə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli Birinci vitse-prezident Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyətinin əhəmiyyətindən bəhs edib. O qeyd edib ki, son illər ölkəmizdə yüzlərlə yeni tibb müəssisəsi tikilib və ya əsaslı təmir olunub, səhiyyənin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilib. G.Gəraybəylinin sözlərinə görə, Azərbaycan səhiyyəsinin inkişafında Mehriban xanım Əliyevanın xüsusi rolu vardır. Onun fikrincə, şəfqət və xeyirxahlıq Mehriban xanımın fəaliyyətinin əsasını təşkil edir.

Natiq Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun diabetli uşaqlara qayğı layihəsinin əhəmiyyətini xüsusi vurğulayıb. Bundan başqa, "Talassemiyasız həyat naminə" layihəsi cəmiyyətimizdə böyük rəğbətlə qarşılanır. Fondun təşəbbüsü ilə 2009-cu ildə Talassemiya Mərkəzi tikilib istifadəyə verilib. Bunun nəticəsində çoxlu sayda uşaqlar öz sağlamlığına qovuşub. Eyni zamanda, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə talasemiyalı və hemofiliyalı uşaqlar üçün dəfələrlə qanvermə aksiyası keçirilib.

G.Gəraybəyli hazırkı pandemiya ilə mübarizə tədbirlərində Mehriban xanım Əliyevanın Prezident İlham Əliyevlə çiyin çiyinə çalışdığını diqqətə çatdırıb. O qeyd edib ki, Mehriban xanımın rəhbərliyi ilə ölkəmizdə pandemiyaya qarşı mübarizə strategiyası işlənib hazırlanıb. Daha sonra çıxış edən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Prezident İlham Əliyev hər zaman cəmiyyət həyatında qadınların rolunu yüksək qiymətləndirib. O qeyd edib ki, tarixin istənilən zamanında bizim örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır: "Bu baxımdan müasir dövrdə ölkəmizin Birinci xanımı, respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva özünün həm ictimai- siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına nümunədir. O, müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Mehriban xanımı şəxsiyyət kimi, xarakterizə edərkən bir məqamı nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir. Mehriban xanımın ictimai-siyasi fəaliyyəti o qədər zəngin və parlaqdır ki, onu bütün incəliklərinə qədər təsvir etmək, sadalamaq, xatırlamaq qeyri mümkündür. Bu mənada Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərin miqyasına nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil.

"Nə üçün xalq ölkənin başçısını və Birinci vitse-prezidenti bu qədər sevir? Çünki, vətəndaşlar cənab Prezidentin və Mehriban xanımın timsalında onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, hər bir ciddi problemə münasibət bildirməyi bacaran insanları görürlər. Onlar daim əhalinin yanındadır, ünsiyyətdən çəkinmirlər, əksinə insanların görüşünə can atırlar",-deyən H.Hüseynovanın fikrincə, bütün bunlar onu göstərir ki, xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa ictimaiyyət onu qəbul etməyəcək. Mehriban xanım Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərdən irəli gələn əzmkar və geniş miqyaslı fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Həm vətəndaş, həm ictimai xadim kimi Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır, ölkənin inkişafına öz layiqli töhfələrini verir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva isə çıxışında bildirib ki, Azərbaycanda humanizm və tolerantlığın simvoluna çevrilmiş, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycançılıq məfkurəsinin təbliğinə, habelə ölkədə sosial rifahın yüksəldilməsinə, elm, təhsil, mədəniyyət, idman sahələrinin inkişafına əhəmiyyətli töhfə verib, məhz onun təşəbbüsü ilə keçirilən çoxsaylı layihələr milli dəyərlərin qorunması və bu dəyərlərin ictimai şüurda möhkəmlənməsinə xidmət edir. Onun sözlərinə görə, Mehriban xanım Əliyevanın ali bəşəri dəyərlərə əsaslanan, Azərbaycanın milli maraqlarını rəhbər tutan fəaliyyətindən bəhs edərkən, ilk növbədə, onun 2004-cü ildə əsasını qoyduğu, hazırda da Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun Azərbaycanın inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxsahəli fəaliyyətə nəzər yetirmək kifayətdir. Heydər Əliyev Fondu yaradılarkən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsini öyrənməyi, təbliğ etməyi, Ulu Öndərin ölkənin sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməyi, həmçinin, Azərbaycan mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərməyi qarşısına əsas məqsəd qoymuşdur.

Bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fond Ulu Öndərin ideyalarını böyük əzm və sədaqətlə həyata keçirir. Məhz bu məqsədlə, Heydər Əliyev Fondunun fəaliyyətində müxtəlif kateqoriyadan olan insanların problemlərinin həllinə, ölkənin yaradıcı və elmi potensialının artırılmasına, müasir tələblərə cavab verən təhsil ocaqlarının, xüsusilə yeni müasir ibtidai tədris müəssisələrinin tikilməsinə, habelə ətraf mühitin, fauna və floranın qorunması və qeyd olunan sahələrdə mühüm tədqiqatların həyata keçirilməsinə dəstək göstərilməsi prioritet təşkil edir.

S.Fətəliyeva qeyd edib ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, o cümlədən Ermənistanın Azərbaycana qarşı təcavüzkar və işğalçılıq siyasətinin ifşa edilməsi istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Təsadüfi deyil ki, Fondun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaratdığı internet portalı, müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətini Ermənistanın əsrlər boyu azərbaycanlılara qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasəti haqqında daim məlumatlandırır. YUNESKO-nun xoşməramlı səfiri kimi bu təşkilatın bütün tədbirlərində qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların təhsili, həmçinin işğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminə məruz qalmış, dağıdılmış tarixi abidələrlə bağlı problemlərə toxunaraq beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması məsələsinə yönəldən Mehriban Əliyevanın rəhbərliyi ilə hazırlanan bu layihə əzəli Azərbaycan torpağı olan Qarabağ haqqında həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq məqsədi ilə həyata keçirilib.

Millət vəkili deyib ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mədəniyyət diplomatiyası ölkənin xarici siyasətinə əhəmiyyətli töhfə verməkdədir. Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü ilə Heydər Əliyev Fondu humanitar sahədə digər dövlətlərlə ikitərəfli münasibətlərin dərinləşməsinə töhfə verməklə, mədəniyyətlərarası və dinlərarası əlaqələrin inkişafına xidmət edir.

Tədbirin sonunda Mehriban xanım Əliyevaya həsr olunmuş videoçarx nümayiş etdirilib.

# “Heydər Əliyev Fondu humanist ideyalarını gerçəkləşdirir”



## Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyevanın yap.org.az-a müsahibəsi:

***- Jalə xanım, bildiyimiz kimi Heydər Əliyev Fondu humanitar layihələrinin miqyasını genişləndirir. Bu layihələrin əhəmiyyəti nədən ibarətdir?***

- Azərbaycanın ictimai, sosial, mədəni həyatında önəmli rola malik olan və artıq tarixə çevrilən-16 ilik uğurlu fəaliyyətinin geridə qoyan Heydər Əliyev Fondu qurum olaraq humanitar layihələrinin miqyasını genişləndirir. Fond səhiyyə, mədəniyyət, təhsil, sosial sahəsində bir sıra layihələri reallaşdırır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədini həyata keçirən Fond nəinki Azərbaycanda, onun hüdudlarından belə kənarda humanist ideyalarını gerçəkləşdirir.

Heydər Əliyev Fondu bir sıra dost dövlətlərdə - Rusiya Federasiyasında, Rumıniyada, Türkiyədə və ABŞ-da nümayəndəliklər yaratmaqla Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə nail oldu. Bütün bunlar Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əməli fəaliyyətində özünü təsdiqləyir. Onun bu genişmiqyaslı layihələri təkcə Azərbaycanda deyil, dünya miqyasında yüksək qiymətləndirilir. Mehriban xanım Əliyeva dünya miqyasında maraq doğura biləcək, beynəlxalq mahiyyət daşıyan layihələrinə imza atır. Onun təşəbbüsü ilə dünya ölkələrində silsilə humanitar tədbirlər həyata keçirilib. Əbəs yerə deyil ki, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun Xoşməramlı səfiri adını daşıyır.

***- Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin sırasında təhsil sahəsi də mühüm yer tutur. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın Birinci Xanımının genişmiqyaslı proqram və layihələri uğurla icra olunur. Təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək məqsədi ilə “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı təhsil sahəsində saysız-hesabsız nailiyyətlərə gətirib çıxarıb. Heç təsadüfi deyil ki, Fondun təşəbbüslərinə hər zaman dövlət tərəfindən də yaxından dəstək verilib, ümumilikdə, son 16 il ərzində 3 min 200-dən çox məktəb tikilib, təmir edilib və bu istiqamətdə işlər bu gün də uğurla davam etdirilməkdədir. Bunlar heç də adi məktəb tikintisi və ya bərpası deyil, bunlar həm də Azərbaycan təhsilinin inkişafı, gələcəyidir, böyüməkdə olan və bizdən sonra gələn, gələcək nəsillərin, gələcək davamçıların parlaq, işıqlı sabahıdır. Çünki təhsil olmadan inkişaf mümkün deyil, təhsilsiz cəmiyyətin gələcəyi yoxdur. Çox sevindirici və mütərəqqi haldır ki, fəaliyyətinin elə ilk günlərindən də Heydər Əliyev Fondu və Fondun yaradıcısı, qurucusu Mehriban xanım məhz bu istiqaməti-Azərbaycan təhsilinin inkişafını başlıca hədəflərdən, prioritetlərdən biri olaraq, seçib, müəyyənləşdirib. Uğurlu nəticələr də göz qarşısındadır.

Ümumiyyətlə, bu istiqamətdə gerçəkləşdirilən “Təhsilə dəstək” layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Fondun layihələri çərçivəsində yüzlərlə məktəb, onlarla uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib, təmir olunub, yüksək standartlarla təchiz edilib. Belə müasir məktəblərin sayı günü-gündən artır. Elmə, təhsilə göstərdiyi diqqətin nəticəsidir ki, fondun təşəbbüsü ilə Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikdirib. Hollandiyada, Gürcüstanda, Misirdə, Rusiyada və Rumıniyada məktəblər tikilib və ya təmir edilib. O cümlədən Leql şəhərindəki musiqi məktəbinin zalı, Ulyanovsk şəhərindəki 78 nömrəli orta ümumtəhsil məktəbinin binası əsaslı təmir olunub. Heydər Əliyev Fondunun dəstəyi ilə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda görmə qabiliyyəti məhdud olan uşaqlar və gənclər üçün mərkəz istifadəyə verilib. Bu görülən işləri sadalamaqla bitmir. Həmin müəssisələr Avropa standartlarına uyğun bir şəkildə təşkil olunub.

***- Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünyada tanıdılması, milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətimizin təbliği istiqamətində genişmiqyaslı fəaliyyəti də xüsusi vurğulanmalıdır...***

- Bəli, Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği ilə yanaşı, elm və təhsilin inkişafını təmin edən layihələrə reallaşdıraraq, bəşəri ideyalara söykəndiyini beynəlxalq aləmə əməlləri ilə bəyan edir. Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirləri həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib. Mehriban xanım Əliyeva öz fəaliyyətində bu strateji istiqamətlərdə möhtəşəm layihələri uğurla davam etdirir. İstər ictimai-humanitar fəaliyyətində, istərsə də siyasi-dövlət həyatındakı fəaliyyətində Mehriban xanım çox uğurlara imza atıb, elə bir sahə, elə bir məsələ yoxdur ki, orada Birinci xanımın xətti, imzası olmasın. Öz titanik və yorulmaz fəaliyyəti ilə Mehriban xanım nəinki Azərbaycan xalqının, bütövlükdə dünyanın sülpərvər, tərəqqipərvər insanlarının sevimlisinə, rəhmə, mərhəmətə, şəfqətə ehtiyacı olan insanların həmdərdinə, könül sirdaşına, himayədarına çevrilib. O, bu gün dünyanın rəhm, mərhəmət və şəfqət simvollarından biridir və bu, Mehriban xanımın timsalında bizim, bütün Azərbaycan xalqının uğuru, baş ucalığıdır. Hər birimiz fəxr və iftixar hissi keçiririk, dünyaya, bəşəriyyətə nəhənglər, böyük zəkalar, dühalar bəxş edən Azərbaycan xalqının belə bir övladı, qızı var. Bu, həm də varislik ənənəsinin davamı, davam etdirilməsidir. Bu, kökdən, ruhdan gələn bir məsələdir. Atalar məsəlində də deyildiyi kimi, ot kökü üstə bitər.

Bəli, Mehriban xanım əsrlərdən, qərinələrdən gələn, bizlərə ərməğan edilən ənənələrimizin, ruh dünyamızın yaşadıcısı, davamçısı, qoruyucusu, himayəçisi, cəfakeşi, fədakarıdır. O, həm də Ulu Öndərimizin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin ən böyük, ən yaxın silahdaşı, çiyindaşı, ömürgün, yol yoldaşıdır. Və hər ikisi birlikdə Azərbaycan dövləti, Azərbaycan xalqı naminə böyük fədakarlıqlara imza atmaqdadır. Bugünkü inkişaf, tərəqqi edən, çiçəklənən Azərbaycan məhz onların birgə Şah əsəridir.

Bu gün Mehriban xanımın növbəti doğum günüdür. Bu əziz və əlamətdar gündə ona Azərbaycan naminə fəaliyyətində növbəti uğurlar, müvəffəqiyyətlər arzulayırıq. Arzu edirik ki, Mehriban xanımın da yaxından iştirakı ilə tezliklə Azərbaycanın ərazi büyövlüyün, suverenliyinin bərpa edilməsinə, Qarabağda, digər işğal altındakı yurd yerlərində üçrəngli bayrağımızın dalğalandırılmasına, Qələbə, Zəfər marşlarının çalınmasına nail olaq. Bu, təkcə arzu, niyyət deyil, bu, həm uzaq olmayan gerçəklik, reallıqdır. Tovuz hadisələri də göstərdi ki, Qələbə, Zəfər günü uzaqda deyil. Biz Ali Baş Komandanımız və onun ən yaxın, ən sadiq silhadaşı Mehriban xanımla birlikdə o günü görəcəyik, o günün əbədi sevincini yaşayacağıq. Buna inanmayanlar isə bizlərdən, Azərbaycan xalqından deyil.

Hamımız, bütün Azərbaycan xalqı bunu gözləyir, buna qəti əminliklə, tərəddüdsüz inanır. Həm Ali Baş Komandanın, həm də Birinci xanımın daim ucadan, ürəkdən şövqlə dediyi kimi, Qarabağ Azərbaycandır, Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycanın olacaq!

Əziz və hörmətli Mehriban xanım, bir daha Sizi doğum gününüz münasibətilə təbrik edirik! Özü də nəinki bizlər, bu gün Azərbaycanda və onun hüdudlarından kənarda minlərlə insan Sizin ünvanınıza ən xoş arzularını və təşəkkürlərini çatdırır. Həyatın ən müxtəlif sahələrində xeyli sayda əsl mənada mühüm, eyni zamanda nəcib əməllərinizə görə Sizə təşəkkür edirik!

# Azərbaycanda dərslər noyabrda başlayır?



Azərbaycanda karantin rejimi qismən yumşaldılsa da, bir çox sahələrlə bağlı qadağalar hələ də qalmaqdadır. Milli.Az xəbər verir ki, hələlik iri ticarət mərkəzlərinin fəaliyyətinə, toy və yas mərasimlərinin təşkilinə, qapalı məkanlarda kafe və restoranların işləməsinə və s. icazə verilməyib.

Sərt karantin tədbirlərinin davam etdiyi bir vaxtda sosial şəbəkədə qadağaların hansı tarixdə ləğvi ilə bağlı müxtəlif fikirlər səsləndirilir. Toy və yas mərasimlərinin təşkili ilə bağlı qadağanın noyabra qədər davam etməsi, həm də təhsil mərkəzlərinin də eyni vaxta qədər bağlı qalması ilə ələqələndirilir. Məhz Məhərrəm ayı bitdikdən sonra toy və yaslara müəyyən şərtlərlə icazələrin veriləcəyi, elə həmin vaxtda dərslərin başlayacağı və ənənəvi təhsilə ölkə üzrə icazə veriləcəyi təxmin olunur.

Ölkə üzrə təhsilin noyabr ayında başlaya biləcəyi ilə bağlı fikirlərə münasibət öyrənmək üçün Təhsil Nazirliyinə müraciət etdik. Qurumun İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov baku.ws-ə bildirdi ki, bu məlumatlar həqiqəti əks etdirmir: “Bunlar hamısı yanlış məlumatlardır. Vətəndaşlarımızın rəsmi xəbərlərə inanması daha doğru olardı. Bu tip fikirlər insanların fantaziyasının məhsuludur. Dərslərin konkret nə vaxt başlayacağı ilə bağlı müvafiq işlər gedir. Yaxın müddət ərzində bununla bağlı rəsmi qərar açıqlanacaq”.

Qeyd edək ki, Azərbaycanda dərslər həm ənənəvi məktəb, həm onlayn dərslər, həm də hibrid formada keçiriləbilər. Hazırda bunların dəyərləndirilməsi və yekun qərarın verilməsi ilə bağlı rəsmi qurumlarla müzakirələr aparılır.

# Əhalinin banklardakı əmanətlərinin həcmi açıqlanıb



Avqustun 1-nə əhalinin banklardakı əmanətlərinin həcmi 7 milyard 774,2 milyon manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatında deyilir ki, əhalinin banklardakı əmanətləri son bir ayda 67,8 milyon manat artıb. İlin əvvəlinə nisbətən bu göstərici 863,7 milyon azalıb.

# “Yeni keyfiyyətdə məmur obrazının yaranması aktuallaşıb”

***“Hazırda ölkəmizdə həyata keçirilən islahatların ən önəmli istiqamətlərindən biri kadr islahatlarıdır. Kadr islahatları mərhələsində biz yeni keyfiyyət dəyişikliklərini müşahidə etməkdəyik.***



Uzun illər Azərbaycan ictimaiyyətinin alışdığı xüsusi bir məmur obrazı formalaşmışdı, eyni zamanda bu əvvəlki dönəmlərdə Azərbaycan məmurunun mənimsədiyi bir məmur obrazı idi. Belə məmur obrazı klassik, mühafizəkar və ictimaiyyət tərəfindən bəzi hallarda tənqidə məruz qalan obraz kimi qəbul olunurdu. Amma hazırda cəmiyyətdə ictimai nəzarət funksiyası artdıqca, yeni ictimai tələblər yarandıqca, yeni keyfiyyətdə məmur obrazının yaranması da aktuallaşıb”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Onun sözlərinə görə, bu hər şeydən öncə Azərbaycanda mövcud olan və islahatlar həyata keçirən ali siyasi iradə ilə bağlıdır: “Çünki hazırkı mərhələdə dəyişən və inkişaf edən yenilənən Azərbaycanda köhnə məmur tipinin mövcud olması əsla mümkün deyil. Ona görə də düşünürəm ki, son bir neçə ildə həyata keçirilən yeni yeni təyinatlar yeni məmur obrazını yaratmağı bacarıb və bu obraz xalq tərəfindən qəbul olunur. Belə məmur obrazı xalqın içərisində olan, onun problemlərini həll edən obrazdır. Bu, həmçinin Azərbaycan Prezidentinin həmişə xüsusi olaraq vurğuladığı kimi, xalqa xidmət edən məmur obrazıdır. Bu isə böyük bir nailiyyət və uğurdur”.

Deputat bildirib ki, Prezident İlham Əliyevin onlayn formatda yeni icra başçılarını qəbul edərkən müxtəlif əhəmiyyətli məsələlərə toxunaraq bir daha ümumilikdə bütün məmurlar üçün ciddi xəbərdarlıq və tövsiyələrin səsləndirdi: “Məsələn, rayon icra hakimiyyəti başçılarına hər bir kəndi gəzməklə bağlı xüsusi tövsiyələr verildi. Rayonlara investisiya, sərmayələrin cəlb edilməsi, yeni iş yerlərinin yaradılması ilə əlaqəli tapşırıq və tövsiyələr də diqqətdən yayınmadı. Bu prosesdə hüququn bir daha xatırladılması isə tamamilə yerində olan hadisə idi. Çünki hüquq və ədalət olmadığı yerdə intizam və nümunəvi iş də olmayacaq”.

H.Babaoğlunun fikrinə görə, Azərbaycan Prezidentinin məmurlara bir daha xəbərdarlıqlar etməsi, son günlərə qədər davam edən bəzi icra hakimiyyətlərinin özündən əvvəlki həmkarları ilə baş verən hadisələrdən ibrət dərsi çıxara bilməməsi ilə əlaqədar idi: “Məsələn, Kürdəmir rayon icra hakimiyyətinin keçmiş rəhbəri. Bu səbəbdən də, bir daha hüququn xatırladılmasını hamıya şamil olunan bir məsələ kimi qiymətləndirərdim. Xüsusən də, məsul vəzifədə çalışan şəxslərə. Bu da Azərbaycanın hüquqi dövlət fəlsəfəsindən və hüququn üstünlüyü prinsipindən irəli gəlir”.

***Aysel Məmmədova***

# Azərbaycan və Türkiyə üçün birgə yeni iqtisadi layihələr perspektivi ortaya çıxıb

***Qardaş Türkiyə yeni-yeni zirvələri fəth etdikcə qazanılan hər bir uğur bütün türkiyəlilər kimi azərbaycanlıları da sevindirir. Bəli tərəddüdsüz ifadə olunan bir fikir mövcuddur: Azərbaycan və Türkiyənin dinamik inkişafı qarşılıqlı olaraq hər iki ölkənin gücünə güc, qüvvəsinə qüvvə qatır.***



Təkcə siyasi dairələrdə deyil, cəmiyyətlərimizin bütün təbəqələrində bu həyat gerçəkliyinin dərk edilməsi tarixi qardaşlıq bağlarımızı daha da sıx bərkidir. Bu doğma münasibət Qara dənizin Türkiyəyə aid milli sektorunda nəhəng təbii qaz yatağının aşkar edilməsi müjdəsi eşidiləndə bir daha təsdiqini tapdı. Mövzu ilə bağlı fikir və mülahizələrimizi bölüşməyə başlayarkən Azərbaycan Prezidenti İlham Əliyevin bu xəbərlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana yazdığı məktubdan mühüm bir məqamı təqdim etmək yerinə düşər. Dövlətimizin başçısı yazır: “...Azərbaycan və Türkiyə uzun illər ərzində nəhəng enerji və nəqliyyat layihələrini uğurla icra edirlər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Bakı-Tbilisi-Qars layihələri ölkələrimiz və xalqlarımız üçün yeni imkanlar açır və Azərbaycan-Türkiyə tərəfdaşlığını daha da möhkəmləndirir.

Ümid edirəm ki, Türkiyənin hazırda apardığı digər kəşfiyyat layihələri də müvəffəqiyyətlə nəticələnəcəkdir. Qardaş Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik. Əminəm ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bundan sonra da inkişaf edəcək və güclənəcəkdir”.

Yeni qaz yatağının Türkiyənin ilk kəşfiyyat-axtarış gəmisi olan “Fateh” tərəfindən tapılması və ona “Sakarya” adının verilməsi özözlüyündə tarixi və mənəvi məna əks etdirir. İndi bütün dünyanı maraqlandıran bir sual meydana çıxıb. Qara dənizdəki “Tuna” kəşfiyyat quyusunda aşkarlanan zəngin karbohidrogen ehtiyat Türkiyəyə nə vəd edir? Prezident İlham Əliyevin məktubunda adları sadalanan layihələr Azərbaycan və Türkiyənin birgə liderliyi ilə qazanılmış milli sərvətlərdir. Bu layihələrin hər birinin həyata vəsiqə qazanması ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın uzaqgörən neft strategiyasından qidalanır. Bölgədə kəşf edilən bütün yeni karbohidrogen yataqlar Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin, eləcə də TANAP xəttinin uzunömürlülüyünü təmin edir.

İlkin hesablamalara görə, “Sakarya” adı verilən yataqdakı 320 milyard kubmetr qaz ehtiyatı orta hesabla 67 milyard ABŞ dolları dəyərindədir. Bu yatağın istismara hazır vəziyyətə gətirilməsi, dənizdən Anadolu sahilinə qədər çəkiləcək əsas boru xətti, dənizdə, sahildə və ana stansiyada qurulacaq ötürücü kompressorlar, təzyiq tənzimləyən avtomatik sistemlər, paylayıcı xətlər, qaz anbarları, qaztəmizləyici depolar və sair işlər ilkin etapda “Sakarya” yatağından məhsul əldə etmək üçün həyata keçiriləcək kompleks layihənin birinci mərhələsinə aid olan işlərdir. Bütün bunlar böyük məbləğdə sərmayə tələb etməklə bərabər, yeni-yeni iş yerləri, o cümlədən sadaladığımız işlər üçün zəruri olan malları istehsal müəssisələrinin qurulması deməkdir. O, cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu “Sakarya” yatağının işlənilməsi üçün Türkiyəyə gətiriləcək məhsul və avadanlıqların daşınmasında bir daha öz strateji gücünü ortaya qoyacaq.

Türkiyə enerji istehsalında çoxşaxəliliyi təmin etmək üçün mühüm strategiya həyata keçirir. Tikintisi uğurla davam edən “Akkuyu” atom elektrik stansiyası, Ankara şəhərinin Sincan rayonunda yerləşən sənaye parkında istifadəyə verilən “Kaylon” şirkəti tərəfindən qurulan “Kaylon” günəş texnologiyaları” fabriki, bir-birinin ardınca istifadəyə verilən külək enerjisi məntəqələri və su elektrik stansiyaları Türkiyənin Respublika tarixində enerji istehsalında sıçrayışlı dinamikanın göstəriciləridir. Qeyd etməliyik ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda da enerji istehsalı sahəsində inqilabi inkişaf baş verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də “Qobu” yarımstansiyasının tikintisi ilə tanış olarkən çıxışındakı mühüm bir məqama diqqət edək: “Biz Türkiyə, Gürcüstan, Rusiya və İranla bu sahədə çox uğurlu əməkdaşlıq edirik. Biz artıq yaradılmış enerji dəhlizləri ilə öz elektrik enerjimizi ixrac edə bilirik”.

Şərqdən Azərbaycanın, cənub və cənubşərq qonşularının, o cümlədən Ərəbistan yarımadası ölkələrinin zəngin karbohidrogen ehtiyatlarını idxal edən və tranzit ötürmə ilə Avropaya nəql etmək imkanı qazanan Türkiyə Qara dənizdən öz təbii yanacaq ehtiyatlarını aşkarlamaqla birmənalı şəkildə bölgənin enerji daşıyıcısı qovşağına çevrilir. Xəzər dənizinin sahil ölkələrinin tükənməz ehtiyatlarını nəzərə alaraq mühakimə yürüdə bilirik ki, Azərbaycan və Türkiyə onilliklər boyu karbohidrogen ehtiyatlarının tranzit nəqliyyat açarını özündə saxlayacaq. Bu amil hər iki ölkənin birlikdə elektrik enerjisi ixracatçısına çevrilməsi üçün böyük perspektivlər yaradır.

İndi Türkiyənin şimal sərhədi sayılan Qara dənizdə qaz yatağının tapılması və eləcə də yeni yataqların aşkarlanacağı ehtimalı deməyə əsas verir ki, qardaş ölkə karbohidrogen məhsullarla qidalanan yeni-yeni sənaye müəssisələri, eləcə də istilik elektrik stansiyaları yaratmaq mərhələsinə qədəm qoyur. Bu istiqamətdə iki qardaş ölkənin yeni layihələr həyata keçirmək, dünya elektrik enerjisi bazarında güclü yer tutmaq və eyni zamanda enerji mübadiləsi ilə bu sahəyə aid məhsullardan daha səmərəli istifadə etmək şansı yaranır.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***

# “Quranda da qeyd olunur ki, öz əlinizlə özünüzü təhlükəyə atmayın”

***Təəssüf hissi ilə qeyd etmək olar ki, bu il Məhərrəmlik ayı və Aşura bütün dünyanı ağuşuna alan pandemiya dövrünə təsadüf edir. Əhalinin sağlamlığını və təhlükəsizliyini düşünən Azərbaycan dövləti Aşura ilə bağlı kütləvi tədbirlərin keçirilməsini məqsədəuyğun hesab etməyib. Bu qərar dini inanclı insanlar tərəfindən müsbət qarşılanıb. Elə söhbət etdiyimiz Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, ilahiyyətçi Hacı Şahin Həsənli “Səs” qəzetinə açıqlamasında deyib.***



O, bildirib ki, dövlətin karantin dövrünün tələblərinə uyğun qəbul etdiyi qayda və tövsiyələr cəmiyyətin maraqlarına tam şəkildə cavab verir: “Bu il Aşura mərasimləri pandemeya dövrünə təsadüf edir, yəni hazırda Azərbaycanda karantin rejimi höküm sürür və karatin rejiminin tələblərinə uyğun olaraq, Azərbaycanda hazırda kütləvi tədbirlər keçirilə bilməz. Çünki kütləvi tədbirlərdə yoluxma riski çox yüksək olur və insanların bir araya gəlməsi indiki şəraitdə qətiyyən arzu olunan deyil. Bütün bu şəraiti nəzərə alaraq, din xadimləri də Qafqaz Müsəlmanları İdarəsinin insanlara müraciə edərək bu il Aşura mərasimlərinin evdlərdə keçirilməsinin məqsədə uyğun hesab ediblər və bu barədə də müraciət qəbul olunub. Ümumiyyətlə, bu ili Ramazan bayramıda, Qurban bayramıda məscidlərdə keçirilmədi, kütləvi tədbirlər olmadı və Məhərrəm ayıda istisina deyil”.

Hacı Şahin bildirib ki, burada ən önəmli məsələ insan sağlamlığıdır və insan sağlamlığına dinimizdə çox böyük önəm verir: “Quranda da qeyd olunur ki, öz əlinizlə özünüzü təhlükəyə atmayın və belə bir şəraitdə insanlar məsələyə anlayışla yanaşmalıdır. Çünki yoluxma riski hələdə qalır, hələdə virus aradan getməyib, virus yaşadıqca müəyyən bu qorunma tədbirləridə görülməlidir. Bunu da qeyd edim ki, bir çox müsəlman ölkələrində də məhdudiyyətlər tətbiq edilir, məsələn İranda bir sıra əyalətlərdə ümumiyyətlə, qadağalar var, başqa yerlərdə məscidlərin içində keçirilməsi qadağandır. Məsələn, Livanda ümumiyyətlə, Məhərrəmlik mərasimləri qeyd olunmur. Biz də hesab edirik ki, bu insanların sağlamlığına təhlükə yaratdığı üçün keçirilməsi məqsədə uyğun deyil. İnsanlar öz evlərində bu mərasimləri qeyd edə bilərlər, din xadimləri canlı yayımlar vasitəsi ilə insanlara müraciət edir, çıxışlar edir və insanlar o ayinlərə evlərindən qoşula bilərlər, qanvermə aksiyasında iştirak edən insanlar məscidlərə müraciət etməsinlər, çünki məscidlərdə bu şərait olmayacaq, məscidlərdə mərasimlər keçirilməyəcək, həmin gün Qan Bankına müraciət etsinlər və orada qaydalara riayət edərək qanvermə aksiyalarında iştirak etsinlər. Bundan əlavə tövsiyə edərdim ki, ehsan vermək istəyən insanlar həmin ehsanı ərzaq yardımı şəkilində yoxsul və ehtiyacı olan insanlara təqdim edə bilərlər. Bu il bu çətinlik dünyanın hər bir yerində var. Arzu edirik ki, tezliklə həyatımız normal axarına düşər və yenidən məscidlərdə kütləvi ayinlər icra edə bilərik”.

***Gülyana***

# Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında vətənpərvərlik, bəşəri ideallara sadiqlik dayanır

## Milli Məclisin deputatı, YAP Gəncə şəhər təşkilatı Qadınlar Şurasının sədri Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi



***- Pərvin xanım, Azərbaycan qadının tariximizdə rolu haqqında fikirlərinizi bilmək istərdik...***

- Azərbaycan qadını zəkası, müdrikliyi, mərdliyi, saflığı ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıb. Zəriflik, incəlik, müqəddəslik rəmzi olan Azərbaycan qadınları eyni zamanda, tariximizin bütün dövrlərində taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini verib, ən əsası isə iradəsi, qəhrəmanlıqları, sədaqəti, vəfası ilə dünyaya nümunə olublar.

Xalqımızın adını həmişə ucalarda, yüksəklərdə tutan qəhrəman Azərbaycan qadınları gözəl ana olmaqla yanaşı, at belində qılınc çalıb, dövlət idarəçiliyində öz sözlərini deyib, adlarını çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazdırıblar. Azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, qoca Şərqin ilk diplomat qadını Sara xatun, Şuşada ilk ədəbi məclis yaratmış Xurşudbanu Natəvan və neçə-neçə fəallıqları, mərdlikləri ilə tariximizi zənginləşdirən qadınlarımız əfsanəyə çevrilərək, Azərbaycan qadınının rəngarəng palitrasını yaradıblar.

Azərbaycan qadınlarının bütün dövrlərdə nümayiş etdirdiyi iradə, fədakarlıq, dərin düşüncə, müdriklik, vətənpərvərlik gələcək nəsillər üçün əsl örnək olub, xalqımızın qürur yerinə çeviriliblər. Nigar, Həcər, Tomris, Nüşabə, Heyran Nisə Bəyim, Burla xatun qeyrətli qadınlarımızın missiyası bu gün böyük humanizmi, xeyirxahlığı, nəcibliyi ilə XXI əsrin ən görkəmli Azərbaycan xanımı, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında davam edir.

***- Respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva müasir Azərbaycan tarixində qadın hərəkatının lideridir. Bu barədə nə deyə bilərsiniz?***

- Müasir Azərbaycan tarixində qadın hərəkatının yeni səhifəsini yazan Mehriban xanım Əliyeva böyük əzmkarlıqla bu məsuliyyətli missiyanın öhdəsindən gəlir. Çoxistiqamətli fəaliyyətinin əsasında xalq sevgisi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik və zərif humanizm dayanan birinci xanımının təşəbbüsü ilə həyata keçirilən layihələr təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda, beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələri də əhatə edir.

"Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar". Qadınların roluna yüksək qiymət verən dahi lider Heydər Əliyevin qeyd etdiyi kimi müasir Azərbaycan qadınının ən yüksək keyfiyyətlərini özündə layiqincə təcəssüm etdirən Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyətində daim mərhəmət, xeyirxahlıq, humanizm kimi ümumbəşəri prinsiplərə sadiq qalaraq təkcə statusuna görə yox, real əməli ilə ölkəmizin birinci xanımı olduğunu sübuta yetirib. YUNESKO və İSESKO-nun xoşməramlı səfiri adlarını ləyaqətlə daşıyan, Ümummilli Liderin xeyirxah, nəcib əməllərini yaşadan Heydər Əliyev Fondunun prezidenti kimi Mehriban xanım Əliyevanın Azərbaycan qadınının sosial fəallığının yüksəlməsində, respublikamızın dinamik inkişafının təmin edilməsinə özünəməxsus töhfələr verməsində, beynəlxalq aləmdə ölkəmizi layiqincə təmsil etməsində də fəaliyyəti misilsizdir.

Milli-mənəvi dəyərlərin qorunması və dünyada təbliği, elmin, təhsilin səviyyəsinin yüksəldilməsi sahəsində gördüyü real əməllər Mehriban xanım Əliyevanın şəxsiyyətində nəciblik, qayğıkeşlik, insanpərvərlik kimi yüksək mənəvi keyfiyyətlərin təcəssümünün ən bariz sübutudur. Müasir dövrdə qadınlarımızın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən Prezidentimiz İlham Əliyev qeyd edir: "Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən, iqtisadi layihələrin iştirakçısı olan qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də müstəqil Azərbaycan Respublikasının gücləndirməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının həyatımızda mövqeyini və simasını müəyyən edir".

Ölkəmizin birinci xanımı bu gün qadın hərəkatının önündə gedərək beynəlxalq görüş və tədbirlərdə Azərbaycan qadınlarını ləyaqətlə təmsil edir, səsini ən yüksək tribunalardan dünya ictimaiyyətinə çatdırır, Azərbaycan adlı məmləkətin həqiqətlərini, inkişaf yolunu bəşəriyyətə nişan verir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqları, qaçqın və məcburi köçkünlərin haqq səsini hər fürsətdə dünyaya eşitdirir, ölkəmizin ərazi bütövlüyünün zor gücünə pozulması faktını yüksək tribunadan beynəlxalq ictimaiyyətin nəzərinə çatdırır.

"Biz əminik ki, gün gələcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, hər bir məcburi köçkün, hər bir qaçqın öz doğma torpağına qayıdacaqdır. Bizim hər bir nailiyyətimizin arxasında Azərbaycan vətəndaşının zəkası, biliyi, bacarığı, istedadı və əməyi durur. Azərbaycan gələcəyə istiqamətlənən dövlətdir. Biz böyük yolun əvvəlindəyik. Müstəqil və dünyəvi dövlət olaraq, tariximizə və köklərimizə sadiq olaraq, mədəniyyətimizi və ənənələrimizi qoruyaraq biz ümumdünya dəyərlərinə, azadlıq, demokratiya, aşkarlıq, dünya birliyinə inteqrasiya yolunu seçmişik" - deyən Birinci vitse-prezidentimizi tez-tez köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında görmək olar. Erməni işğalı nəticəsində yurd yerindən didərgin salınmış məcburi köçkünlər Mehriban Əliyevaya pənah yeri kimi baxırlar. Haqlı olaraq onlar öz ümidlərində yanılmırlar. Bu da bir daha Azərbaycanda müasir xeyriyyəçilik hərəkatının Mehriban xanım Əliyeva tərəfindən davam etdirildiyinin təsdiqidir.

***- Bu gün ölkəmizdə pandemiya ilə mübarizənin ön sıralarında gedən Mehriban xanım Əliyevanın təşəbbüsləri və çağırışları xalqımız tərəfindən yüksək dəyərləndirilir...***

- Həyatının mənasını Vətəninə və xalqına xidmətdə görən, hər bir azərbaycanlı qadınına nümunə olan ölkəmizin birinci xanımı sadəliyi və səmimiliyi ilə insanların sevgisini qazanıb. Ümumdünya qlobal böhranına çevrilmiş COVID-19 infeksiyasının ölkələri gözlənilməz bəlaya düçar etdiyi bir dövrdə də ölkə Prezidenti İlham Əliyevin Azərbaycanda koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlarla ilə yanaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın "Mən sizə bir övlad, bir həyat yoldaşı, bir ana və nənə olaraq müraciət edirəm! Qəlbimin dərinliklərindən gələn və hər birinizə ünvanlanan bu sözlərimi eşidib məni anlayacağınıza ümid edirəm!" - kimi çağırışları ölkə vətəndaşlarında gələcəyə inam, pandemiyadan az itki ilə çıxacağına ümid yaratdı.

Eləcə də, torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qarabağ torpağında Azərbaycanın üçrəngli bayrağının dalğalanması ən müqəddəs arzusu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza müraciət ünvanladı, şəhid olan hərbçilərimizin ailə üzvlərinə diqqət və qayğısını əsirgəmədi.

Tutduğu mövqedən, statusdan asılı olmayaraq hər bir azərbaycanlının taleyinə biganə qalmayan Mehriban xanım Əliyeva ictimai-siyasi fəaliyyəti ilə Azərbaycan qadınının fədakar, humanist obrazını bütün dünyaya nümayiş etdirdi. Azərbaycan qadınının rolunu və fəaliyyətini çox yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyevin "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir" fikirlərini Mehriban xanım Əliyeva özünəxas nəcib, humanist və insanpərvər xarakteri, ictimai fəaliyyəti ilə təsdiq etdi.

Doğma Azərbaycanı, müdrik, mərd və mərhəmətli xalqını hədsiz dərəcədə sevən Mehriban xanım Əliyevanın timsalında mərdlik, sədaqət, ucalıq mücəssəməsi Azərbaycan qadınının obrazı dünyada ləyaqətlə təmsil edilərək bəşəri ideallarin təntənəsinə xidmət edir.

# "Sosial status heç kimə qanunun tələblərindən yan keçmək imtiyazı vermir"



"Azərbaycan hüquqi dövlətdir və qanun qarşısında hamı bərabərdir. Sosial statusu, tutduğu vəzifə, göstərdiyi xidmətlər heç kimə qanunun tələblərindən yan keçmək imtiyazı vermir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Ramin Məmmədov deyib.

R.Məmmədov bildirib ki, Azərbaycan Prezidenti dəfələrlə öz çıxışlarında qanunun tələblərinə hər kəsin əməl etməsinin zəruriliyini vurğulayıb. Qanun qarşısında bərabərlik dövlətdə davamlı sabitliyin, cəmiyyətin bütün təbəqələrindən olan vətəndaşların maraq və mənafelərini müdafiə etməyə qadir mükəmməl idarəçilik mexanizminin yaradılmasının fundamental prinsiplərindən biridir. "Bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Çünki qanunlar və onların icrasına məsul dövlət qurumlarının kifayət qədər dəqiq, operativ işləyən nəzarət mexanizmləri var. Üstəlik ictimai nəzarətin də bu məsələdə rolu zaman keçdikcə artır. Ona görə də, hər birimiz atdığımız addımları daha dərindən ölçüb-biçməli, dövlətimizin qanunlarına hörmət nümayiş etdirməliyik".

Deputat bildirib ki, Azərbaycanda heç kimin fəaliyyətinə, qeyri-qanuni addımlarına fərdi statusuna görə qiymət verilmir. "Qanunları pozan hər kəsi qanun cəzalandırır. Yəni hansısa vəzifəli şəxsin yol verdiyi pozuntulara onun sosial statusuna görə qiymət verilməməlidir. Bu, məsələnin yalnız mənəvi-psixoloji tərəfi kimi qiymətləndirilə bilər. Sadə vətəndaş qanun qarşısında hansı məsuliyyət daşıyırsa, vəzifəli şəxsin də hüquqi məsuliyyəti eynidir, ona hansısa əlavə üstünlüklər, yaxud imtiyazlar tanınmır. Çünki hüququn başlıca prinsipi ədalətdir, hüquq insanlara deyil, konkret əməllərə qiymət verir".

R.Məmmədov hesab edir ki, son hadisələr bir daha qanunlara əməl etməyin vacibliyinə dair cəmiyyətə ünvanlanmış mesaj kimi dəyərləndirilməlidir. Bu mesajdan isə hər kəs nəticə çıxarmalıdır. "Qanunlar vətəndaşların mənafelərini qorumaq üçün qəbul olunur. İndiki situasiyada COVID-19 pandemiyası ilə bağlı karantin rejiminin tətbiqindən irəli gələn müəyyən qadağalar, məhdudiyyətlər var. Hansı ki, vətəndaşların, o cümlədən bu qanunu pozan şəxslərin də sağlamlığını qorumağa xidmət edir. Yəni onlara qarşı tətbiq olunan cəzalar, həm də onların öz mənafelərini qoruyur. Deputat bütün vətəndaşları qanunların tələblərinə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə riayət etməyə çağırıb.

# Paşinyanın sərsəm "oyunları"

## Ekspert: "Azərbaycan ordusunun belə savadsız nazirin sərsəm bu təxribatlarına güc tətbiqi ilə cavab vermək hüququ var"

***Son aylar Azərbaycanın sərhəd ətrafında işğalçı Ermənistanın təxribat törətmək istəkləri biabırçı uğursuzluqla nəticələnməkdədir. Bu isə, Ermənistanda yaranmış gərgin vəziyyəti daha da çətin duruma gətirir. İndi artıq elə bir gün olmur ki, Ermənistanda vəziyyətin dünənkinə nisbətən daha ağır olduğu barədə xəbərlər gəlməsin. Baş verən bu hadisələrlə bağlı xarici ekspertlər bildirirlər ki, Azərbaycan ordusunun belə savadsız nazirin sərsəm təxribatlarına güc tətbiqi ilə cavab vermək hüququ var.***

Qazaxıstan politoloqu Daniyar Qasımov: "iyulun 12-də Azərbaycan və Ermənistanın dövlət sərhədində, onun ardınca Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun törətdikləri təxribatlar cinayətdir. Çünki Ermənistan hərbçiləri Azərbaycanın sərhəd bölgələrinin mülki əhalisinə qarşı cinayət törədiblər. Hesab edirəm ki, Azərbaycan ordusunun bu təxribata güc tətbiqi ilə cavab vermək hüququ var. Yerini bilməyənləri belə yerini göstərmək lazımdır".

### Riçardas Lapaytis: "İnanıram ki, az bir zamanda Azərbaycan Ordusu bütün işğal olunmuş əraziləri azad edəcək!"

Litva hərbi jurnalisti Riçardas Lapaytis: "Bu kədərli xəbəri eşidən kimi dərhal düşündüm ki, erməni hərbçilərin 75 yaşlı mülki şəxsin öldürüldüyünü eşidərkən bir daha Ermənistanın faşist niyyətli olduğu göstərdi. Yenə də düşündüm ki, dünyada bu cinayətə də heç bir reaksiya olmayacaq. Təəssüf ki, Azərbaycanda mülki şəxslərin öldürülməsinin Ermənistan hakimiyyəti üçün çoxdan normal olduğunu Avropada bilməyən çox az adam qalıb. Mən cəbhə bölgəsindəki Qapanlı kəndinə səfərlərimdən birində gənc traktor sürücüsünün necə yaralandığını xatırlayıram. Mülki şəxslərin öldürülməsi müharibə cinayətləri kateqoriyasına aiddir. Lakin təəssüf ki, Ermənistan hələ də beynəlxalq təşkilatlar tərəfindən cəzasız qalır. Əgər belə olacaqsa, onda ermənilər bu cür davranmaqda davam edəcəklər! Onların düşüncələrində heç nə dəyişməyib. Ermənilər haqqında dahilər də bildiriblər ki, yeri-yurdu olmayan, onun-bunun qoltuğuna sığınan rəzil, dələduz, fırıldaqçı, abırsızlardır.

Ermənilər özləri haqqında da bu fikri təsdiqləyirlər. Belə ki, erməni sovet yazıçısı Petroniy Qay Amatuni yazırdı: "Ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər".

Erməni şərqşünas alimi Kerop Patkanov yazırdı ki, Ermənistan bəşəriyyət tarixində dövlət olaraq heç bir əhəmiyyətli rola malik olmayıb: "Onun adı ermənilər tərəfindən yayılan coğrafi termin olub. Bura güclü dövlətləri olan assuriyalılarla, midiyalılarla, iranlılarla, yunanlarla, monqollarla, ruslarla mübahisələrin həlli məkanı olub".

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, bu işğalçı ölkəyə rəhbərlik edənlərin hamısı quldur, cinayətkar, oğrudurlar: "Deyə bilərəm ki, Ermənistanın müstəqillik tarixi, prinsipcə, rüsvayçılıq tarixidir. Çünki indiki iqtidar artıq dəfələrlə bəyan və sübut edib ki, 1998-ci ildən 2018-ci ilə qədər Ermənistana rəhbərlik etmiş şəxslər cinayətkardır, oğrudur, quldurdur. Onların bir çoxu həbs edilib. Məlum olub ki, onların generalları oğrudur, əsgər tuşonkasını oğurlayıb, sonra bazarlarda satdırırdılar. Onların qəhrəmanları cinayətkardır, onların prezidentləri rüşvətxordur. Bütün dünya bunu bilir".



Göründüyü kimi, tarix boyu, dünyaya peyda olduqları tarixdən bu günə kimi həmişə əsl riyakar, satqın, quldur, işğalçı sifətlərini göstəriblər.

### Edil Osmonbetov: "Mülki şəxslərə qarşı hərbi güc tətbiq edilməsi yolverilməzdir"

Qırğızıstan politoloqu Edil Osmonbetov isə bildirir ki, mülki şəxslərə qarşı hərbi güc tətbiq edilməsi yolverilməzdir: "Beynəlxalq təşkilatlara müraciət etmək üçün hüquq mühafizə orqanları tərəfindən bu cür cinayətlərin sübut bazasını toplamaq lazımdır".

Rusiyalı analitik jurnalist və millətlərarası münaqişələr üzrə mütəxəssis Yevgeni Mixaylov Ermənistan hərbçiləri tərəfindən sərhəddə ekskavatorun vurulması ilə törədilən təxribat, İrəvanın Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə hazır olması barədə erməni təbliğatının bütün yalanlarını üzə çıxardı: "Burada sadə bir təxribat görmürəm, çünki Ermənistandakı bəzi qüvvələr Paşinyana müharibə və yalnız müharibə lazım olduğunu və sülh danışıqlarında oynamağa ehtiyac olmadığını, Rusiyaya isə İrəvanın barışmaq istədiyini göstərməli olduğunu anladırlar. Bu fakt İrəvanın xeyrinə olmayacaq. Beləliklə, yenə də Ermənistanın yeni hökumətinin sabit daxili siyasi vəziyyətlə - öz sərhədlərindəki münaqişədə maraqlı olmayan Moskvanın maraqlarına sadiq qala bilməməsi ilə bağlı suallar yaranacaq".

### Nikol Paşinyan da sələfi Sarkisyanın aqibəti ilə üz-üzə qalacaq

Əslində, Ermənistan hökuməti uzun müddətdir ki, silahlı qüvvələrində baş verən neqativ halları gizlətməklə, eyni zamanda, hərbçilərinin hər təxribatdan sonra Azərbaycan ordusu tərəfindən darmadağın edilməsini ört-basdır etməklə məşğuldur. Paşinyanın hakimiyyətə gəlməsi də Azərbaycan ordusu ilə baş verən toqquşmalarda, eyni zamanda qeyri-döyüş vaxtları orduda baş verən ölüm hallarını, cinayət əməllərini aradan qaldırmadı. İşğalçı ölkənin silahlı qüvvələrində özbaşınalıq və hərc-mərclik baş alıb gedir. Erməni ictimaiyyəti və ekspertləri orduda neqativ halların ildən-ilə artmasının səbəbini hakimiyyətdə olduğu kimi, orduda da klanlaşma siyasətinin mövcudluğunda, korrupsiyanın adi hala çevrilməsində, illik hərbi büdcədə nəzərdə tutulandan artıq maliyyə vəsaitinin əlavə silah-sursat və döyüş texnikalarının alınmasına sərf edilməsində, eləcə də, zabit-gizirlərin maddi və sosial durumlarının çox aşağı səviyyədə olmasında görürlər.

Beləliklə, Ermənistan silahlı qüvvələrinin Tovuz təxribatında olduğu kimi, "Goranboy əməliyyatı"nı da, peşəkarlıqla dəf edən Azərbaycan ordusu növbəti dəfə ermənilərə yerlərini göstərmiş oldu. Görünür, Azərbaycan və Ermənistan dövlət sərhədlərində təxribatları genişləndirən Paşinyan hakimiyyəti ölkə daxilindəki sosial-iqtisadi problemlərdən cəmiyyəti yayındırmaq üçün xarici düşmən mövzusunu aktuallaşdırmağa və öz səriştəsiz daxili və xarici siyasətini arxa plana keçirməyə çalışmaqdadır. Digər erməni liderləri kimi o da erməni cəmiyyətini Azərbaycan mövzusunda birləşdirmək, bununla da xalqının gündəlik problemlərini unutdurmağa uğursuz cəhdlər edir. Eyni zamanda, Ermənistan bu kimi təxribatçı əməlləri ilə xarici siyasətdə münaqişəyə digər dövlətləri cəlb etməklə məğlub ordusunun qoruya bilmədiyi ərazisində və işğal altında olan torpaqlarımızda "dayaq" yaratmağa çalışır. Belə nəticəyə gəlmək olar ki, Ermənistan tarixində Nikol Paşinyan da sələfi Sarkisyanın aqibəti ilə üz-üzə qalacaq. Hazırda düşmən ölkədə gedən siyasi proseslər onu göstərir ki, erməni baş nazirin siyasi arenadan getməsi onun səlahiyyət müddətindən daha tez baş tutacaq. Və erməni cəmiyyəti bilməlidir ki, bu ölkə Azərbaycanla normal qonşuluq münasibətləri qurmadan inkişafa nail ola bilməyəcək və hakimiyyətin apardığı təxribat dolu siyasi oyunlar ona çox baha başa gələcək.

### Təxribatlar ermənilərin itkilərini artırır...

Baş verən növbəti Goranboy təxribatı da bir daha onu göstərdi ki, Ermənistan rəhbərliyi özünün çirkin niyyətlərindən və əməllərindən əl çəkmir. Eyni zamanda, düşmən Tovuzda aldığı son dərslərdən də hələ lazımi nəticə çıxara bilmir. Əksinə, Ermənistan və işğal edilmiş ərazilərdə yaradılan qondarma rejimin rəhbərliyi sərsəm bəyanatlar verir, Gəncəni, Mingəçeviri, Naxçıvanı vurmaqla hədələyir. Ardınca Goranboy istiqamətində yeni təxribatlara əl atılır. Bunlar bir daha onu göstərir ki, düşmən məqsədli şəkildə cəbhə bölgəsində gərginlik yaratmaq istəyir. Yuxarıda qeyd olunduğu kimi, düşmənin bütün təxribatlarının qarşısı Azərbaycan ordusu tərəfindən hər dəfə qətiyyətlə alınıb. Erməni diversiya qrupunun komandirinin əsir götürülməsi də bu mənada Azərbaycan ordusunun yüksək səviyyədə hazırlıqlı olduğunu bir daha sübuta yetirir. Üzləşdiyi bu olaydan diqqəti yayındırmaq üçün isə erməni tərəfi yenə sərsəm mövqe sərgiləyir. Belə ki, erməni diversiya-kəşfiyyat qrupunun itki verərək geri çəkilməsi və komandir Qurgen Alberyanın Azərbaycan ordusu tərəfindən əsir götürülməsi ilə bağlı Ermənistan Müdafiə Nazirliyi gülünc açıqlama yayıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan Qurgen Alberyanın guya "hərbi mövqeləri yoxlamaq üçün" getdiyini, ancaq hava şəraitinin pis olması səbəbindən "azdığını" bildirib. Lakin bu açıqlamanın reallıqdan çox uzaq olmasını Ermənistanın özündə də yaxşı bilirlər. Reallıq odur ki, düşmən bu dəfə Goranboy istiqamətində təxribata getmək istəyib, amma yenə layiqli cavabını alıb.

### Tiqran Abrahamyan: "Azərbaycan ordusu Qarabağ məsələsini çox qısa müddətdə həll edə bilər, 2016-cı ildə baş verən aprel savaşı və uğurlu əməliyyatlar bunun təsdiqidir"

Ermənistanın "Henaket" analitik mərkəzinin rəhbəri Tiqran Abrahamyan da qeyd edir ki, baş verənlər erməni tərəfinə getdikcə daha baha başa gəlir. O, Azərbaycan ordusunun böyük gücə sahib olmasının da burada öz sözünü dediyini vurğulayır: "Azərbaycan ordusunun döyüş və qələbə əzminin yüksək olduğunu etiraf etmək lazımdır. Hələ 2016-cı ildə baş verən aprel savaşı, demək olar ki, bütün istiqamətləri əhatə edən əməliyyatlar oldu. O əməliyyatlarda iştirak edən yüksək vəzifəli zabit və hərbi qulluqçular orduda hələ də qalır. Onlar məğlubiyyətin acısını hiss ediblər. Və bu da onları həssas edib. Azərbaycan ordusu Qarabağ məsələsini çox qısa müddətdə həll edə bilər. Üstəlik, daim danışılan bəzi epizodlar var, onlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin arsenalından hələ tam istifadə etməməsidir".

Erməni ekspert bildirir ki, Azərbaycan bu halda genişmiqyaslı müharibəyə başlasa, Ermənistan üçün çox çətin olacaq. İndi maraq doğuran məqam ötən ay sərhədin Tovuz rayonu istiqamətində lazımi dərslər alan Ermənistanın nədən növbəti dəfə təxribata cəhd etməsidir. Ekspertlər bu məsələdə Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Azərbaycana gözlənilən səfərinin az rol oynamadığını bildirir. Qeyd edilən səfər ərəfəsində ermənilər cəbhədə vəziyyəti gərginləşdirib, Sergey Şoyqunun Azərbaycanda hansısa yeni hərbi razılıq əldə etməsini əngəlləməyə cəhd ediblər. Məsələ burasındadır ki, rəsmi məlumatlara əsasən, Azərbaycan müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə gələn Sergey Şoyqu Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Dəniz Kuboku" müsabiqəsinin bağlanış mərhələsinə qatılacaq. Həmçinin, bildirilir ki, Sergey Şoyqu Azərbaycanda sərhəddə erməni təxribatından tutmuş Ermənistana Tovuz döyüşlərindən sonra göndərilən 400 ton hərbi texnika, Azərbaycanla hərb sahəsində mümkün yeni əməkdaşlığa dair də müzakirələr də aparacaq.

Ekspertlərin sözlərinə görə, bütün bunlar Ermənistanda ciddi əndişə yaradır. Bu səbəbdəndir ki, Bakı və Ankaranın ruslarla razılaşa biləcəyindən qorxan ermənilər Goranboy istiqamətində təxribata gedərək hansısa razılığa əngəl törətmək istəyiblər. Yəni bununla Ermənistan Azərbaycanla hərbi toqquşmaları gücləndirməklə münaqişənin masada həllini sıradan çıxarmaq niyyətindədir. Amma proseslər düşmən təxribatlarının reallıqda işə yaramadığını göstərir. İndilikdə görünən budur ki, Şoyqunun Bakı səfərinin nəticələri bölgədə hadisələrin sonrakı inkişafını müəyyənləşdirəcək əsas məqamlardan biri olacaq. Bakı həmin səfərdə rus tərəfindən istədiyini ala bilməyəcəyi halda Qarabağ münaqişəsinin hərbi həll ehtimalı daha da artacaq. Bu zaman Azərbaycanı Rusiya və ya Ermənistanın digər hamiləri dayandıra bilməyəcək. Bunu isə ermənilər özləri də yaxşı bilir.

Sonda onu da qeyd edək ki, Nikol Paşinyan hökumətinin son günlər azğınlaşaraq Azərbaycanın yaşayış məntəqələrini, mülki vətəndaşları və onların evlərini atəşə tutması Ermənistan üçün uğurlu olmayacaq. Və Paşinyanın başçılıq etdiyi yeni Ermənistan hökumətinin bundan kənarda olub-olmadığını zaman göstərəcək.

**A.SƏMƏDOVA**

# Erməni ordusunun real vəziyyəti: könüllü alaylarının yaradılması nəyi sübut edir?

## *Armenianreport: "Ermənistanın hərbi idarəsinin təklifi silahlı qüvvələrimizlə bağlı ümidverici düşüncələrimizi şübhə altında qoyub"*

***Azərbaycan Ordusunun Tovuzda erməni təxribatçılarına verdiyi ağır məğlubiyyət faktından sonra, bu dəfə Goranboy ərazisində düşmən diversiya-kəşfiyyat qrupunu aşkar edərək zərərsizləşdirməsi, həmçinin təxribatçı qrupun komandirini əsir götürməsi, əslində həmin məğlubiyyətin davamı olaraq qiymətləndirilə bilər. Əbəs deyil ki, ermənilər də bu amil qarşılığında ciddi təşvişə və qorxuya düşüblər.***



Onu da qeyd edək ki, Ermənistanın hazırkı rəhbərliyi sabiq prezident Serj Sarqsyanı 2016-cı ilin aprel müharibəsinə görə istintaqa cəlb etməklə bağlı qərar veribsə, onu məğlubiyyətin əsas baiskarı qismində görürsə, ehtimal etmək mümkündür ki, dayaqları laxlayan Nikol Paşinyan hakimiyyəti də devriləcəyi halda (artıq bu vəziyyət yetişib-R.R.) hakimiyyətə yeni gələcək qüvvələr onu Tovuz və s. məğlubiyyətlərinə görə ittiham edib, istintaqa cəlb edəcəklər. Hətta bu gün ermənilərin siyasi müxalifəti və bu qola bağlı olan siyasi-ictimai adamları artıq sözügedən ittihamlarını irəli sürməkdədirlər. Nikol Paşinyan hökuməti isə düşdükləri ağır vəziyyətdən çıxmaları üçün uğursuz önləyici tədbirlər görməyə başlayıb.

### Layihədə hərbi əməliyyatlar zamanı vətəndaşların könüllü qaydada Ermənistanın müdafiəsinə qatılmaları məsələsi mövcuddur

Ötən xəbərlərimizdə xatırlatmışdıq ki, Ermənistanın müdafiə nazirliyinin mətbuat katibi Şuşan Strepanyan özünün Facebook səhifəsində könüllü alaylarının yaradıldığı barədə informasiya paylaşıb. Həmin məlumatda bildirilir ki, artıq bununla bağlı qanun layihəsi hazırlanıb və orada hücum, yaxud hərbi əməliyyatlar zamanı vətəndaşların könüllü qaydada Ermənistanın müdafiəsinə qatılmaları məsələsi mövcuddur.

"Könüllü alayları Ermənistanın müdafiəsində əməkdaşlıq edərək əraziləri, əhalini, infrastrukturları düşmənin diversiya, terror və kəşfiyyat fəaliyyətindən müdafiə edəcəklər, eləcə də yerli özünüidarə orqanlarının həyat və fəaliyyətlərinə köməklik göstərəcəklər", yazan Şuşanyan əlavə edib ki, könüllü alayları düşmənlə təmas xətlərinin təhlükəli yerlərində, sərhədlərin mühafizəsində xidmət apararaq xüsusi obyektlərin - mülki müdafiə təşkilatlarının və s. da müdafiəsində dayanacaqlar.



"Alaylar administrativ qaydalara uyğun olaraq, ərazicilik əsasında fəaliyyət göstərəcək. Onlar briqadalara və batalyonlara bölünəcək hərbi birləşmələrdən ibarət olacaqlar", ermənilərin müdafiə nazirliyinin rəsmisi yazıb.

Düşmənin canlı qüvvəsi kifayət qədər çatışmazlıq yaşayır

Bu arada, daha bir maraqlı məqam diqqətdən yayınmır. Belə ki, Ermənistan hakimiyyəti və hərbi-siyasi dairələri zaman-zaman ordularının "güclərindən" bəhs edərək, hətta bir az da irəliyə gedərək, guya ən müasir texniki təchizatlara, habelə zabit-əsgər heyətlərinə malik olduqlarını iddia edirlər. Amma göründüyü kimi, istər Ermənistanın Azərbaycanla olan dövlət sərhədindəki təmas xəttində, istərsə də işğal olunmuş ərazilərimizdəki cəbhəyanı bölgələrdə hətta ən kiçik silahlı münaqişə yarandığı vaxt, düşmən səngərlərdə əsgər tapmaqda çətinlik çəkir. Məhz bu danılmaz fakt da sübut edir ki, düşmənin canlı qüvvəsi kifayət qədər çatışmazlıq yaşayır və nəticədə, Ermənistanın rəhbərliyi könüllü alaylar yaratmaqla həmin çatışmazlıqlarını ört-basdır etməyə çalışırlar.

### Tevos Arşakyan: "Əgər döyüşlər qələbəmizlə başa çatıbsa, onda nəyə görə müdafiə nazirliyi yerli əhalidən könüllü alayları yaradır?"

SİA xəbər verir ki, artıq həmin məsələnin erməni dairələrində ən çox danışılan mövzuya çevrilməsi KİV-lərdə də əks olunmaqdadır. Məsələn, armenianreport saytının baş redaktoru Tevos Arşakyan könüllülər alayının yaradılması təklifinə ilginc münasibət sərgiləyib və bir sıra digər məsələlərin təhlilini aparmaqla, əslində, Ermənistan ordusunun nə dərəcədə ağır vəziyyətə düşdüyünü açıqlayıb.

"Ermənistanın hərbi idarəsinin təklifi silahlı qüvvələrimizlə bağlı ümidverici düşüncələrimizi şübhə altında qoyub və fikirləşirik: orada hər şeymi yerindədir, necə ki, bunu bizə sübut etməyə çalışırlar", deyə yazan erməni jurnalistin qeyd etdiyinə görə, könüllülər alayı yalnız o zaman yaradılır ki, hər hansı kritik vəziyyət yaransın və ordu düşmənin hücumları qarşısında aciz qalaraq geri çəkilsin.

"Bu gün, ya da gələcəkdə ölkəmizlə bağlı belə halı təsəvvür etmək mümkündürmü?", sualını edən T.Arşakyan əlavə edib ki, Paşinyan iqtidarı guya cəbhədə uğur əldə etdiklərini bəyan edib, üstəlik, avqusutn 14-də 72 nəfər hərbi qulluqçunu mükafatlandırıb. Məhz bu mənadan çıxış edən erməni siyasi icmalçısı yazır: "Mənə elə gəlir ki, nəyi isə başa düşmürəm. Əgər döyüşlər qələbəmizlə başa çatıbsa, onda nəyə görə müdafiə nazirliyi yerli əhalidən könüllü alayları yaradır?"

### Erməni baş redaktor: "Bu qərarlar bizdə nəinki silahlı qüvvələrimizə qarşı inamsızlıq hissi yaradır, həm də dövlətin bizi qoruması qabiliyyətinin olmaması təsirini bağışlayır"

Müəllif Azərbaycanda birinci onillik deyil ki, müharibə şəraitində yaşadıqlarını xatırladaraq qeyd edir ki, daha əvvəllər bu cür təşəbbüslər göstərilməyib və heç vaxt yerli əhali könüllü alayları yaratmaqla sərhədlərin müdafiəsinə, ya da təhlükəli məntəqələrə göndərilməyib. SİTAT: "Belə çıxır ki, bu gün silahlı qüvvələr, nizamlı ordu təkbaşına öhdəsinə düşən vəzifələri icra edə bilmir. Deməli, bizim orduda hansısa neqativ proseslər baş verir və hərbi rəhbərlik bu barədə susur? Bəlkə bizim hakimiyyət tezliklə növbəti hərbi əməliyyatların başlayacağı barədə xəbərdardır? Bəs onda niyə müdafiə tədbirlərinin görülməsi üçün müvafiq qərarlar verilmir? Necə olursa-olsun, orduya yardım məqsədi ilə xalq könüllülərinin yaradılması növbəti dəfə sübut edir ki, orduda problemlər mövcuddur. O cümlədən, bir tərəfdən tribunalarda məğlubedilməz ordu, onun yüksək hərbi ruhu və hazırlığı barədə bağırmağa, digər tərəfdən isə könüllü alaylarının yaradılması ətrafında var-gəl etməyə də gərək yoxdur. Çünki bir vətəndaş olaraq bizim də haqqımız var ki, hərbi dairələrin pafoslu çıxışları arxasında nələr gizlənib və könüllü alaylarının yaradılmasına ehtiyac haradan qaynaqlanır. Axı bu qərarlar bizdə nəinki silahlı qüvvələrimizə qarşı inamsızlıq hissi yaradır, həm də dövlətin bizi qoruması qabiliyyətinin olmaması təsirini bağışlayır".

Beləliklə, fakt budur ki, Ermənistan ordusu və hərbi siyasi dairələri nə qədər acınacaqlı, pərişan vəziyyətdə olduqlarını elə öz dilləri, verdikləri qərarları ilə etiraf etmiş olurlar. Əks halda, onlar könüllülər alayları yaradıb, onları müxtəlif hərbi birləşmələrə paylamaq barədə qərar verməzdilər. Əslində, erməni ictimaiyyətinin də ciddi təlaş və narahatlıq keçirmələri də bu reallığı ehtiva etməkdədir.

**Rövşən RƏSULOV**

# "Dövlətimizin üstünlüyü həm də Ermənistanın xaricdəki havadarlarını məğlub etməsindədir"

***"Son illər ərzində Ermənistan tərəfinin münaqişə bölgəsində aktivliyi artıb, atəşkəsi intensiv şəkildə pozurlar: "Diqqət yetirsək görərik ki, bu intensivlik 2016-cı ildən, aprel döyüşlərindən başlayaraq daha da artıb.***



**Bu sıraya 2020-ci ilin iyul ayında Tovuz rayonu isitiqamətində baş verən hərbi əməliyyatları da daxil etmək mümkündür". Bunu SİA-ya Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli deyib. "Fikrimcə, bütün bunları Ermənistan hakimiyyətinin və Ermənistan silahlı qüvvələrinin 2016-cı ilin aprel döyüşlərindən başlayaraq uğradıqları silsilə məğlubiyyətlərlə əlaqələndirmək mümkündür. Onlar qisas almaq, acılarını unutmaq istəyirlər.**

**Azərbaycanın 90-cı illərdəki durumunun dəyişdiyini, layiqli cavablar verməyə hazır olduğunu həzm edə bilmirlər. Amma hər dəfə qisas üçün qalxdıqda daha ağır zərbə alaraq itkilərə məruz qalırlar. Tovuz hadisələrindən 40 gününün tamamında, cəbhənin Goranboy rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun planladığı təxribatı da bu kontekstdən şərh etmək mümkündür. Ermənistan müdafiə naziri D.Tanoyanın Moskvaya səfəri, "Armiya-2020" hərbi-texniki forumunda iştirakı da mühüm məsələdir. Erməni nazir forum çərçivəsində nümayiş etdirmək üçün yeni şou hazırlayıb. Amma Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Döyüş zamanı erməni diversiya qrupunun komandiri, baş leytenant Qurgin Alberyan əsir götürülüb.**

**Bu, onu göstərir ki, Azərbaycan dövləti düşməni həm döyüş müstəvisində, həm də siyasi-diplomatik müstəvidə məhv etməyə hazırdır. Azərbaycan həmişə, hətta ən zəif vaxtlarında da Ermənistandan güclü olub. Sadəcə, ermənilərin xaricdəki havadarlarının qurduğu oyunlar onu "qalib" kimi göstərə bilib. Azərbaycan dövlətinin, onun indiki hakimiyyətinin üstünlüyü ondadır ki, Ermənistanın özü ilə yanaşı, onun xarici havadarlarını da məğlub edə bilir, artıq bu gücü qazanıb"-deyə, M.Ələsgərli fikrini tamamlayıb.**

***Ceyhun Rasimoğlu***

# Elşən Musayev: "Ümid edirik ki, Rusiyanın Müdafiə naziri Sergey Şoyqu dediklərində səmimidir"

***- Elşən müəllim, cəbhədə erməni təxribatı son vaxtlar daha da intensivləşib. Bu təxribatların səbəbini nə ilə izah etmək olar?***

- Bu təxribatların çox müxtəlif səbəbləri var. Əvvələ Ermənistan və onun siyasi rəhbərliyi panika içindədir. Həm pandemiyanın özü ilə gətirmiş olduğu iqtisadi-siyasi bəlalar, həm də Paşinyanın uğursuz fəaliyyəti düşmən ölkədə ciddi çaşqınlıq yaradıb. Belə olan halda isə diqqəti əsas məsələlərdən yayındırmağa çalışırlar. Tovuz üzərindən edilən erməni həmləsinin, təxribatının kökündə də bu məqsəd dayanırdı. Digər səbəb heç şübhəsiz ermənilərə stimul verən qüvvələrin aktivliyi və bölgədə sabitliyi pozmaq cəhdidir. Həmin "maraqlı" qüvvələrin kimliyi də heç kimə sirr deyil. Çünki məlum qüvvə və ya qüvvələr haqda dəfələrlə danışmışıq. Başqa bir səbəb budur ki, Azərbaycanın beynəlxalq sferada gün-gündən artan nüfuzu ermənilər ciddi narahat edir və tez bir zamanda Dağlıq Qarabağ probleminin həlli məsələsinin vacibliyini ortalığa qoyur. Yəni, Ermənistan və onun rəhbərliyi anlayır ki, qondarma və işğalçı siyasətlə çox uzağa gedə bilməyəcəklər. Hətta artıq erməni əsilli politoloqlar, siyasətçilər belə işğal altında olan torpaqların əzəli sahibinə qaytarılmasının zərurət və labüd olmasından danışırlar. Bu hal isə Paşinyanı və onun uğursuz komandasını qıcıqlandırır. Qıcıq isə panika, rabitəsizlik, sistemsizlik yaradır. BBC müxbirinin Paşinyanı çox çıxılmaz vəziyyətə salması, yəqin hər birinizin xatirindədir. Ermənistan rəhbəri qəfil sual qarşısında necə çökdüsə, hələ də bütün dünya həmin mənzərədən danışır. Çünki deməyə, danışmağa nəsə yox idi. Danışmağa nəsə olmayanda



Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir

isə ya nala-mıxa vurursan, ya susursan, ya da təxribat törədirsən. Paşinyanda susacaq sifət yoxdur, çünki qırmızı adamdır. Təxribat isə onların qanındadır, təxribat onların ənənəvi üsullarıdır.

***- Cəbhənin Goranboy rayon istiqamətində Ermənistanın təxribat-diversiya qrupunun komandiri əsgərlərimiz tərəfindən əsir götürülüb. Bununla bağlı nə deyə bilərsiniz?***

- Ermənistan ordusunun elə bütün əsgərləri təxribatçı-diversantdır. Amma komandirin tutulması və onun növbəti mərhələdə verəcəyi ifadələr, məncə çox mətləblərə aydınlıq gətirəcək. Bildiyim qədər artıq konkret maddələrlə cinayət işi qaldırılıb. Gedişatı hamı kimi mən də izləyirəm. Eyni zamanda düşünürəm ki, məhz komandir diversantın ələ keçirilməsi çox ciddi hadisədir. O şərəfsizi ölü deyil, diri olaraq tutan peşəkar və qəhrəman Azərbaycan əsgərlərinə eşq olsun.

***- Rusiyanın Ermənistana 400 ton silah satması faktı ortadadır. Bunu Rusiyanın Ermənistana göstərdiyi növbəti qardaşlıq dəstəyi hesab etmək olar?***

- Mən bu haqda xüsusi yazı ilə çıxış etmişəm. Ona görə eyni mövzuda növbəti xırdalıqlara varmayacam. Sadəcə, bir məqamı deyim ki, 400 ton hələ görünən və müəyyənləşdirilən faktdır. Miqyasın daha böyük olması isə istisna deyil.

***- Bakıda səfərdə olan Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Azərbaycanla hərbi əməkdaşlığa hazır olduqlarını və Rusiyanın hərəkətlərinin Azərbaycana qarşı olmadığını bildirib. Bu səfəri və nazirin fikirlərini necə şərh edərdiniz?***

- Azərbaycan dövləti hər zaman qarşılıqlı və ədalət prinsiplərinə söykənən əməkdaşlığın tərəfdarı olub. Üstəlik, nəinki tərəfdarı olub, həm də real və əyani addımlarla bunu sübut edib. Bizim hazırda tək problemimiz Ermənistanladır. Çünki torpaqlarımızı işğal edib. Digər ölkələrlə isə daim müttəfiqliyə də, strateji müttəfiqliyə də açıq olmuşuq. Bu gün yenə ümid edirik ki, Rusiyanın Müdafiə naziri Sergey Şoyqu dediklərində səmimidir. Fəqət, bunu gerçək həyatda göstərmək lazımdır. Gerçək həyatda və əməli fəaliyyətdə. Azərbaycan əsgəri təkbətək döyüşdə, mübarizədə Ermənistanı məğlub etməyə, diz çökdürməyə qadirdir. Yetər ki, kimsə mane olmasın və ya düşmənə güc verməsin, yardım etməsin.

***Gülyana***

# DİN: 15 kiloqramdan çox narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

***Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan daha bir şəxsi saxlayıblar.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında Sumqayıt şəhərində keçirdikləri tədbir zamanı narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Qubadlı rayon sakini Ramin Qasımlı tutulub. Şəxsi axtarış zamanı onun üzərindən 2 qram me-



tamfetamin aşkar edilib. Ramin Qasımlının idarə etdiyi "Lada" markalı avtomobilin yük yerindən isə 12 kiloqram heroin və 3 kiloqram metamfetamin aşkarlanıb. Əməliyyat nəticəsində ümumilikdə 15 kiloqramdan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

Araşdırma zamanı müəyyən olunub ki, saxlanılan şəxs adı hələlik istintaqa məlum olmayan İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitələri Yardımlı rayonunda qəbul edib və Sumqayıt şəhərinə gətirərək satışını təşkil etmək istəyib.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, Ramin Qasımlı tutularaq istintaqa təqdim olunub. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## *Sükan arxasında narkotik qəbul edən taksi sürücüsü saxlanılıb*




Cəlilabad şəhəri ərazisində taksi fəaliyyəti ilə məşğul olan "Opel" markalı avtomobilin sürücüsü manevretmə qaydasını pozduğu üçün Cəlilabad RPŞ-nin dövlət yol polisi bölməsinin yol patrul xidmətinin əməkdaşları tərəfindən ona "saxla" işarəsi verilib. Bu zaman avtomobilin sürücüsü olan Cəlilabad şəhər sakini İsmayıl Yusifzadənin hərəkətləri şübhə doğurduğu üçün o, tibbi müayinəyə dəvət edilib. Müayinə zamanı sürücünün avtomobili narkotik vasitənin təsiri altında idarə etdiyi məlum olub. Həmin şəxsin bir neçə ay bundan əvvəl də eyni əmələ görə cərimə olunduğu müəyyən edilib. İsmayıl Yusifzadə barəsində toplanmış materiallar baxılması üçün Cəlilabad Rayon Məhkəməsinə göndərilib



# *Toyu qara gələn...*

**RƏFİQƏ**

***Yaxşı deyiblər, koronavirus bir bəladır, milləti qoyub pis günə. Ancaq pis gündən də çıxmaq üçün oturub gözləməmişik. Ölkəmizin başçısı elə ilk gündən yenə də xalqın pis günündə dayaq olub, işlər görüb, nəticəsi də, necə deyərlər, bu günümüzə şükür. Ancaq şükür etdiyimiz günümüzün daha da yaxşı olması üçün biz də deyilənlərə əməl etməliyik.***

Dövlət başçımızın dediyi kimi, özlərini hamıdan yuxarıda hiss edən "ağa", "xan" kimi aparan "mən deyən olmalıdır" iddiası ilə "karantin rejiminin nə qanunları" deyən məmurlar toy arzusuna düşüblər. Elə bu günlərdə Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin nəvəsinə etdiyi toy bir çox məmurların da "toyunu" etmiş oldu. Bu toyda "sevinmək" istəyən məmurların başı o qədər qarışmışdı ki... Heç karantin nə mənədir belə anlamırdılar. Bir də onda ayıldılar ki, başlarından böyük qələtlər ediblər, özü də böyük, bağışlanılmaz...Anlamadılar ki, hüquqi dövlətdə yaşayırlar. Anlamadalar ki, hamı qanun qarşısında bərabərdir, heç kimə qanunun tələblərindən yan keçmək imtiyazı verilmir. Məgər bütün bunları bilmirdilər? Bilirdilər ki, qanundan yan keçmək, gizlənmək olmaz, qanunları pozan hər kəsi qanun cəzalandıracaq.

Bəli, ay məmurlar, bizim qanun da məmur, vəzifəli şəxs məsələsi rol oynamır, hər kəs qanun qarşısında eyni qaydada məsuliyyət daşıyır. Çünki yığdığınız o haram sərvətlər gözünüzü o qədər kor edib ki, qanunlarımızın başlıca prinsipi ədalət olduğunu, hüquq insanlara deyil, konkret əməllərə qiymət verildiyini bilə-bilə "şah qanundur" iddialarınızı həyata keçirmək istədiniz. Nəticəsi nə oldu - dövlətin qanunlarına hörmətsizlik. Bu kimliyindən və tutduğu vəzifədən asılı olmayaraq, hər kəs törətdiyi əməllərin cəzasını qanun çərçivəsində alacaq! Çünki heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. İndi gördünüz ki, QANUN ŞAHDIR, şah qanun deyil. Heç bir şəxs də öz mövqeyindən, statusundan istifadə edərək qanunları və qanunun tələblərini poza bilməz, bütün atılan addımlar da Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

Necə deyərlər, görünür yolunu azanlardan adam olmaz. Və bu gün özünü "ağa", "xan" kimi aparan, insanlara "yuxarıdan aşağı baxan" məmurlar bir daha anlamadılar ki, bir xalqın xoşbəxt və firavan yaşaması onun liderinin apardığı siyasətin tərkib hissəsi ilə ölçülə bilər, daha haram sərvətlərlə yox! Əslində, bu gerçəklik həm də aksiomadır. Yəni lider xalqının maraqlarının təmin olunmasında xarizmatik keyfiyyətlərini ortaya qoymaqla həm də iradəsini nümayiş etdirir - millətinə, dövlətinə xidmət iradəsini...

Lakin bu gün həmin bu məmurlar elə zənn edir ki, "bu qanun elə kasıb-kusub üçündür?". Və anlamırlar ki, (əslində, çox yaxşı anlayırlar və anlaya-anlaya bunu edirlər- R.H.) bu cür davranışlar cəmiyyətdə insanların hökumətə qarşı inamını sarsıdır, xoşagəlməz rezonans yaradır. Nəticədə belə özündən müştəbeh yolunu azan, özünü "ağa", "xan" kimi aparan qudurğan məmurların sonu... Toyu qara gəlmək buna deyirlər. Özü də bu toyun davamı qanun kürsüsündə... Bax, budur qanunun şah olduğu! İndi qalıb qanunun şah olduğu ittihamlar kürsüsündə qanunun tələblərini pozanların cəzasına - bu adamlar əməllərininə görə mütləq şəkildə cavab verməli olacaqlar!

# Əli Kərimlinin dar düşüncəsi və siyasi səhvləri

## AXCP sədri özünü rüsvay etməkdə davam edir

***AXCP sədri Əli Kərimlinin özünü hamıdan artıq "siyasətçi" kimi təqdim etməsi, əslində onun özü barədə həddindən artıq yüksək fikirlərdə olduğunu nümayiş etdirsə də, həqiqətdə bu adamın ümumiyyətlə, siyasi bilgisinin olmadığı zaman-zaman irəli sürdüyü fikirlərində də yer alır. Belə ki, daim qərəz və ölkənin əldə etdiyi istənilən uğurlara düşmən nəzərləri ilə baxan bu ünsürün, hətta ümummilli məsələlərdə belə, qısqanclıqla yanaşması dəfələrlə sübuta yetirilib.***



Məhz belə bir məqamda özünü "siyasətçi" kimi ictimai rəyə zorla sırıyan, amma cəmiyyət arasında siyasətbaz kimi tanınan Ə.Kərimli bir daha özünü-ifşa ilə nəticələnən fikirləri sayəsində biabır edib, hətta deyərdik ki, özünü "yandırıb".

### Türk qardaşlarımız buraya hər hansı əyləncəyə, ya da istirahətə gəlməmişdilər

Misal üçün, Avropada erməni dəyirmanına su tökməklə erməni çörəyi yeyənlərin canlı yayımlarından birinə qatılan AXCP sədri bu dəfə Azərbaycanla -Türkiyə və Azərbaycan-Rusiya arasında olan siyasi və s. əlaqələrdən danışaraq, gerçəkdə hansı xislətə malik olduğunu sərgiləyib. O, öz dar düşüncəsinə qapılaraq səmərəsiz aləmində iddia edib ki, sən demə Azərbaycan dövləti Türkiyə və Rusiya hərbçilərin gəlişi zamanı ayrı-seçkilik edib, hətta iki dövlət arasında birini digərindən "üstün" tutub və s. Nidalı suallar yaradan bu cür bir sərsəm düşüncəni araşdırarkən, Ə.Kərimlinin dediklərindən belə çıxır ki, istər Naxçıvan ərazisində, istərsə də ölkəmizin digər bölgələrində keçirilən hərbi təlimlər zamanı Azərbaycan tərəfi təlimlər yox, şou-konsert təşkil etməli imiş və s. Bu adam ümumiyyətlə, anlamır ki, Türkiyənin ordu birləşmələri Azərbaycana birgə hərbi təlimlər keçirməyə gəlmişdi və bu təlimlər özünün peşəkarlığı, qüdrəti və dünyaya saldığı əks-sədası ilə bir daha ölkələrimiz arasındakı sarsılmaz birliyi sübuta yetirdi. Yəni türk qardaşlarımız buraya hər hansı əyləncəyə, ya da istirahətə gəlməmişdilər.

### "Dəniz kuboku" müsabiqəsi adından da göründüyü kimi, sırf hərbi deyil, bir növ, idman yarışı xarakterini daşımaqdadır

Rusiyaya gəlincə isə, Şimal qonşumuzun iki hərbi gəmisi "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçiriləcək "Dəniz kuboku" müsabiqəsində iştirak üçün gəlmişdilər. Yəni bu məsələdə sırf hərbi təlim məqsədləri, yaxud birgə hərbi strateji məqsədlər yoxdur. Ona görə də, "Dəniz kuboku" müsabiqəsi adından da göründüyü kimi, sırf hərbi deyil, bir növ, idman yarışı xarakterini daşımaqdadır. Qısacası, hətta hərbi bilgisi, siyasi qavrayışı olmayan ən adi insan da bilir və dərk edir ki, bu təyinatlar tamamilə bir-birindən fərqlidir və bunları bir-birinə bağlamaq sadəcə savadsızlıq, səbatsızlıq və düşüncəsizlikdir!

Əslində, AXCP sədrinin belə bir dar düşüncəyə malik olması ilk dəfə deyil, ona görə də onun belə sərsəmliklərindən təəccüblənməyə də dəyməz.

### AXCP-nin vur-tut, 100 nəfər üzvü var və bunu Əli Kərimlinin özü deyir

Məsələn, bir müddət əvvəl də o yöndəmsiz ifadələri ilə özünü və partiyasını ifşa etmişdi. Belə ki, o, "partiyanın yarıdan çoxu həbsxanadadır" deyərək 46 nəfərinin həbsdə olduğunu da bildirmişdi. Halbuki o, AXCP üzvlərinin "on minlərlə", hətta "yüz minlərlə" (?!-R.N.) olduğunu qeyd edirdi. Nəticədə, əgər biz Ə.Kərimlinin bir neçə gün bundan öncə statuslarında həbsdəki cəbhəçilərin sayının 46 nəfər olduğunu yazmasını nəzərə alsaq, o zaman onun partiyasında heç 100 nəfərin olmadığı qənaətinə gəlmək mümkündür. Bütün bunlar isə onun açıq-aşkar siyasi səhvləri, özünüifşası və rüsvayçılığıdır. Yəni belə dar düşüncəyə başqa cür ad vermək də olmur...

***Rövşən NURƏDDİNOĞLU***

# Gültəkin Hacıbəylinin brend markası: o neçəyədir?

Vaxtilə hakimiyyət sıralarında olarkən, Milli Məclisin deputatı statusunu daşıdığı vaxtlarda siyasi artistizm donuna girib kürsüsünü hər şeydən üstün tutduğunu gizlətməyən, çoxsaylı qanunsuz əməlləri ilə sadə vətəndaşların haqlarını tapdalayan Gültəkin Hacıbəylinin siyasi cəhətdən "imici" dəyişsə də, yəni bu dəfə özünü "Milli Şura"nın "primadonnası" kimi təqdim etsə də, zahiri imicindən, dəbindən geri qalmayan bu qadın bir daha sübut edir ki, onun üçün heç bir ideya, siyasi mühit önəmli deyil. O, sadəcə, özünün lüks həyat yaşaması üçün əlləşir və geridə qalanlar onun üçün boş şeydir.




### Brend geyim-keçimlər, bahalı parfümlər və kosmetikalar, eləcə də komfortlu və lüks həyat yaşamaq...

Məsələn, əgər G.Hacıbəyli indi də "müxalifətçi ideoloq" qismində çıxışlar edib, "xalq acından ölür" tipli yalan fikirlər səsləndirirsə, bu fikirlər də, sadəcə boğazdan yuxarı deyilmiş ifadələrdir ki, ona görə müəyyən dairələrdən qrantlar, vəsaitlər alır. Alırsa, almırsa öz işidir, amma gəlin görək o "acından ölən xalqın" bircə nümayəndəsinə hər hansı bir məsələdə maddi və s. yardımlar göstərirmi? Əlbəttə ki, xeyr. Çünki onu maraqlandıran tamamilə başqa şeylərdir. Misal üçün, brend geyim-keçimlər, bahalı parfümlər və kosmetikalar, eləcə də komfortlu və lüks həyat yaşamaq...

Bu, həmin G.Hacıbəylidir ki, neftin qiyməti aşağı düşəndə bunu toy-bayram kimi təqdim edib, özü kimi nanəcib "milli şuraçıları" təbrik edirdi, çünki onun gözündə "acından ölən xalq" daha "ağır" vəziyyətə düşməklə qiyam-filan qaldıracaqmış, əlbəttə ki, bu onun xülyaları və utopiyalarıdır. Lakin məsələnin daha bir tərəfi budur ki, əslində G.Hacıbəyli həqiqətən də öz yararsız düşüncələri ilə xalqın ağır vəziyyətə düşməsini arzulayır. Nədir ki, Allah eləməmiş bunlar hakimiyyətə-zada gələcəklər və o da yenidən iqtidar komandasında yer alıb başlayacaq özünə brend mallar almaq üçün talançılığa. Bəli, onu maraqlandıran məsələ yalnız öz həyatıdır, başqa heç nə!

### "Milli Şura"nın "primadonnasına" hərtərəfli baxırlar

Bütün bunları isə sübut edən aləmzərt faktlar var və biz həmin faktları elə onun öz çərçivəsindən dəyərli oxucularımızın diqqətinə çatdıra bilərik. Sən demə o, hər gün 1700 manatlıq kompyuter, 1200 manatlıq telefon, 705 manatlıq ayaqqabı, aksesuarlar və daha nələr sifariş verirmiş.

Və buradan daha bir nəticə çıxararaq qənaətə gələ bilərik ki, onun "acından ölürük" saçyolduları, üzcırmaları, dizdöymələri, donçəkmələri yalan imiş. Yox əgər əksinədirsə, o zaman xaricdən alış-veriş üçün əndişə keçirən Gültəkin Hacıbəyli hansı mənbədən əldə etdiyi maliyyə hesabına bahalı həyat yaşayır, sürücüsü var və tez-tez oğlucığazını xaricə göndərir? Guya hər gün xalqın dərdini çəkən bu xanım görəsən işləmədiyi halda necə bu qədər bahalı həyat sürə bilir? Ehtimal olunur ki, ya Avropadakı, ya da tez-tez restoranlarda hesabat verdiyi səfirlik "dostları" onu cani qəlbdən, hətta digər yazıla bilinməyəcək məsələlərə görə maliyyələşdirirlər. Daha dəqiq desək, Avropa dairələrində belə bir sətiraltı deyim var, siyasi fahişənin fiziki fahişəyə çevrilməsi...

***Rövşən NURƏDDİNOĞLU***

*P.S. Görünür, avropalı bəyləri, ya da səfirlik dostları "Milli Şura"nın "primadonnasına" hərtərəfli baxırlar*



Təhmasib Novruzov

# Ziyalı susursa, ziyası yoxdur demək

### və ya "Hanı millət üçün sərəncamın?.."

Rəhmətlik Şükür kişinin kəlamlarındandır: "İtirdiyin hər şeyi təzədən tapa bilərsən. Amma adını, sanını, qeyrətini itirsən, onu təzədən bir ömür boyu tapa bilməzsən!". Təzə oxucularımıza bildirim ki, Şükür kişi köhnə kişilərdən olub, sadə peşə adamıydı, su cuvarı kimi pambıq, taxıl suvarıb, halal zəhmətlə doqquz övlad böyütmüşdü. Təhsili olmasa da, həyatdan o qədər öyrənmişdi ki, çox təhsillilər onunla üz-üzə gələndə ehtiyatlanardılar.

Elə bu dediyini bir dəfə də bir az başqa formada çatdırdı bizə. Əlindəki beli yerə qoyub, su arxından azca palçıq götürüb belin sapına sürtdü. Sonra su ilə yudu, təmizlədi. İzah elədi ki, hara, nə boyda olur-olsun, ləkə düşərsə, onu yuyub-təmizləyə bilirsən, amma adına ləkə düşdüsə,ömrün axırına kimi o ləkə sənlə olacaq. Çalışın adınıza ləkə düşməsin. Beləcə, özünün sadə izahları ilə bizi həyata hazırlayardı rəhmətlik.

Oturub çox düşünürəm ki, əcəba millətin bu qədər akademiki, professoru, şairi, yazıçısı var. Dövlət ziyalılar üçün bir ev tikəndə on minlərlə ortaya çıxıb, döşünə döyüb "mən də ziyalıyam" deyənlər görmüşük. Bəs nədən bu qədər ziyalı oturub düşünüb, daşınıb, rəhmətlik Şükür kişi kimi qanmayanları qandırmaq üçün bir cəhd göstərmirlər? Üstəgəl, Şükür kişi bütün təbliğatını, öyüd-nəsihətini təmənnasız, yəni pulsuz-parasız edərdi. Axı özünü ziyalı adlandıranlarımızın əksəriyyəti dövlətdən nə qədər pul alırlar! Dillənəndə Şükür kişi kimilərə də yuxarıdan aşağı baxırlar. Seyid Əzim Şirvaninin müctehidlərə üz tutub dediyi iki misra yadıma düşdü: "Hanı millət üçün sərəncamın? Yerə girsin o müctəhid namın!" Bu qədər ziyalısı olan bir məmləkətdə irəli durub əllilik əllilərə, cəm əyən cəmillərə, sevincsiz sevinclərə, millətə qənim qənimətlərə...daha bilmirəm kimlərə... bir kəlmə söz deməyə cəsarəti çatanların sayı barmaq sayından çox deyilsə, bunun adı nədir görəsən? Bu yaxınlarda telekanalların birində "Abır, həya, yoxsa mütilik?" barədə tok-şouda ekspert qismində iştrak edirdim. Mövzunu, hər zaman olduğu kimi, yenə şoulaşdırmaq, başqa istiqamətə yönləndirmək cəhdləri olsa da, hesab edirəm ki, müzakirə faydalı oldu və lazımi nəticəyə gəlindi.

Nəticə o idi ki, əgər abır, həya, ismət qoruyuram deyib, dövlətə, milli dəyərlərə, ümumxalq mənafelərinə zərərli fəaliyyətdə bulunan birinin iyrənc vasitələrə əl atdığını görüb susursansa, o zaman sən ziyalı deyilsən. Əsl ziyalı, özünə, əməlinə, yaşadığı sağlam omurə əmin olan kimsə, kiminsə ona atacağı şər-böhtan dolu çirkar sözlərdən çəkinməməlidir. Təkcə qalaq-qalaq kitablar yazmaq, elmi əsərlər yazıb elmi titullara yiyələnmk ziyalılıq üçün kifayət hesab edilməməlidir.

Gerçək ziyalı millətinin, xalqının mənafeyinə toxunan hər bir faktın üstünə getməli, insanları öz ziyası ilə işıqlı yola istiqamətləndirməlidir. Bütün XX əsr boyu Azərbaycan ziyalılarının cəmiyyətin və xalqın həyatında bir ordunun görə bilmədiyi nailiyyətlərin əsl təbliğatçıları, təşkilatçıları olması danılmaz faktdır. Ziyalılqda da cılızlaşma xəstəliyi kükrəyibmi görəsən?

Bu günlərdə REAL TV-də bir film nümayiş etdirilirdi. Mirşahinin müəllifi olduğu "Xainlər" filmi əsl vətəndaşlıq mövqeyi ilə çəkilmiş film kimi çox əhəmiyyətli idi. Həmin filmdə cənub bölgəsindən olan, talış xalqının ağsaqqal bir nümayəndəsi belə bir ifadə işlətdi.: "O cür adamların (Yeni filmdə haqlarında danışılan xainlərin - T,N,) özləri bir heçdir. Amma fışdırığa yüyürən adamlar var ki, elələrinin toruna tez düşür." Məncə çox yerində deyilmiş kəlamdı. Bu gün fışdırığa yüyürənləri gerşək istiqamətə yönləndirmək üçün əsl ziyalı sözünə ehtiyac olduğu bir zamanda susan ziyalıları ziyalı hesab etmək doğru deyil. Bu xalqa, bu dövlətə açıq-aşkar qənim kəsilənlərin gurultulu hay-küylərinə biganəlik, bütün bunları seyr edib susqunluq nümayiş etdirmək o deməkdir ki,ya sən dünyanın gedişindən baş çıxara bilmirsən, ya da özünün gülü üzülməkdənsə haqqın tapdanmasını daha doğru sayırsan. Hər iki hal ziyalılığın olmamasından qaynaqlanır.

Və sonda millətimizin ziyalı zümrəsini indiki qaynar bir zamanda susmamağa, qəti mövqe ortaya qoymağa dəvət edirəm. Tanrı millətimizi və dövlətimizi qorusun!

# Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdə məhrumiyyətlərə görə dəyən zərərlər

***Hərbi münaqişələr nəticəsində dəyən mənəvi zərərlərin ölçülməsi mümkün olduqda dolayı və uzunmüddətli itkilər hesablanır. Dolayı və gələcəkdə baş verəcək təsirlərin ehtimalı və yarada biləcəyi orta və ya proqnozlaşdırılmış xərclər qiymətləndirilir. Məsələn, zorakılığa məruz qalmış uşaqların ali təhsil almaması səbəbindən itirdikləri qazanc müqayisə əsasında qiymətləndirilə bilər. Bu zaman təhsil müddətində qazanclar, təhsil haqqı kimi əks amillər çıxıla bilər. Başqa bir variantda birbaşa və dolayı təsirlərin nisbəti müəyyən edilməklə dolayı təsirlər qiymətləndirililə bilər.***

Münaqişələr nəticəsində yaranan zərərlərin kifayət qədər məlumat bazası olduğu halda kəmiyyət qiymətləndirilməsi də aparıla bilər. Belə ki, işğal nəticəsində qaçqın (köçkün) həyatı yaşayan insanların nə qədər az qazanc əldə etdikləri və onların sosial müdafiəsi üçün xərclənən büdcə vasitələrini müəyyən etməkolar. İşğal nəticəsində dəyən zərərin qiymətləndirilməsində ilkin mərhələ zərərçəkənlər arasında sorğunun keçirilməsi olabilər.

Sorğu zamanı respondentlərin güc tətbiqi ilə bağlı dəymiş zərərin məbləği barəsində fikri öyrənilir. Bu sorğular üç növ olur:

1. Seçmə üsul - respondentlərdən güc tətbiqinin nəticələrini qiymətləndirmək və ya hər hansı arzu olunan nəticəyə nail olmaq üçün nə qədər pul xərcləməyə hazır olduqlarını bildirmələri xahişolunur.

2. Hedonik - faktiki davranış məlumatları əsasında güc tətbiqinin nəticə-lərinin qiymətləndirilməsi. Məsələn, güc tətbiq olunan ərazilərdə və normal ərazi-lərdə yerləşən əmlakın dəyəri arasındakıfərq müəyyən edilir (sərhədyanı və müharibə zonasında yerləşən əmlakın qiymətləndirilməsində istifadə olunabilər).

3. Həyatın dəyəri - respondentlərdən öz təhlükəsizliyini təmin etmək üçün nə qədər əlavə xərc çəkməyə hazır olduqları barəsində soruşulur.

Rəsmi sənədlərdə işğal edilən ərazilər 20 %-ə qədər göstərilsə də işğal zonasına yaxın yaşayış məntəqələrində normal həyat şəraitinin və təsərrüfatla məşğul olmaq imkanlarının olmadığını nəzərə alsaq demək olar ki, hazırda Azərbaycan ərazisinin 25 %-ə qədəri erməni təcavüzünün nəticələrini öz üzərində hiss etməkdədir. Ermənistanın təcavüzü Azərbaycan üçün, hər şeydən əvvəl, böyük insan itkiləri və iztirabları ilə müşayiət olunan ciddi problemlər yaratmışdır. İşğaldan sonrakı ilk illərdə məcburi köçkünlərin həyat şəraitinin pis olması, əhalinin təbii artımının azalmasına və uşaqölümünün artmasına səbəb olmuşdur.

Ümumiyyətlə, işğal nəticəsində 1 milyondan artıq Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olmuş, 20 min nəfər həlak olmuş, 50 min nəfər əlil olmuş, 4, 51 min nəfər (1 iyul 1992 - ci il tarixinə) əsir və itkin düşmüşdür. Nəticə etibarilə qeyd olunan tarixə 75 min nəfərə yaxın Azərbaycan vətəndaşı ölkənin sosial - iqtisadi həyatında aktiv iştirakdan məhrum olmaqla yanaşı dövlət büdcəsinə və bir sıra büdcədənkənar fondlara külli miqdarda əlavə vəsait xərcləri obyektinə çevrilmişlər. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi vaxtilə həmin ərazilərdə yaşayan əhalinin demoqrafik göstəricilərinə də öz təsirini göstərmişdir. Belə ki, işğaldan sonrakı ilk illərdə məcburi köçkünlərin həyat şəraitinin pis olması əhalinin təbii artımının azalmasına və uşaq ölümünün artmasına səbəb olmuşdur.

Statistik rəqəmlərin təhlili göstərir ki, 1998-1999-cu illərdə bütün işğal olunmuş rayonlar üzrə hər min nəfərə görə təbii artım 11,2-22,6 nəfər, Cəbrayıl, Qubadlı, Ağdam və Zəngilan rayonlarında isə 16,9-22,6 nəfər azalmışdır. Azərbaycan hökumətinin qaçqınların və məcburi köçkünlərin həyat səviyyəsinin yüksəldilməsi və sağlamlığının qorunması istiqamətində apardığı məqsədyönlü siyasətin uğurlu nəticələrinə baxmayaraq hələ də bu sahədə müsbət nəticələr əldə etmək çətindir ki, bu da Ermənistanın işğalçılıq siyasətinin Azərbaycan ailələrinə və vətəndaşlarına vurduğu mənəvi, psixoloji zərbələrin və gətirdiyi sosial- iqtisadi problemlərin nəticəsidir.

Ermənistanın işğal etdiyi rayonlardan olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onları arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. Bunu sabit il hesab olunan 1989-cu illə 1998-ci ilin müqayisəsi aydın göstərir İşğal olunmuş rayonların hamısında 1989- 1998-ci illər arasındakı dövrdə doğum kəskin surətdə aşağı düşmüş, ölüm qismən artmış və təbii artım hər 1000 nəfərə görə həddən çox azalmışdır. Bu azalma (hər 1 000 nəfərə görə) rayonların hamısında 11, 2 - 22,6 nəfər arasında olmuşdur. Göstərilən illərdə Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdam rayonları əhalisinin məskunlaşdıqları yeni yerlərdə təbii artım daha çox aşağı düşmüşdür. (16,9 - 22,6 nəfər arasında). İşğal olunmuş rayonların hamısında demoqrafik göstəricilər orta respublika səviyyəsindən aşağıolmuşdur.

İşğal olunmuş rayonlarda əhalinin təbii artımının aşağı düşməsinin başlıca səbəbləri sosial və iqtisadi şəraitin həddən artıq ağır olması, dağ və dağətəyi zonalarının yaşayış şəraitinin düzən yerlərdəki isti iqlimə uyğunsuzluğu və s.-dir.

Qaçqın və köçkünlərin ən ağrılı problemlərindən biri də onların işlə təmin olunmasılə bağlı çətinliklərdir. Azərbaycan Respublikası Qaçqınlar Komitəsinin verdiyi məlumata görə 1999-cu ildə 301 359 nəfər və əmək qabiliyyətli qaçqın və məcburi köçkün olmuşdur, onların 196 380 nəfəri yaxud ümumi əmək ehtiyatlarının 65,2 % -i uzun müddət işsiz qalmışdır.

Uzun müddət ərzində məcburi köçkünlərin 74 min nəfəri lazımi şəraiti olmayan çadır şəhərciklərində, 99 min nəfəri quraşdırılmış evlərdən ibarət qəsəbələrdə, 17,5 min nəfəri ictimai binalarda, məktəblərdə, uşaq bağçalarında və yataqxanalarda, 20,2 min nəfəri qohum evlərində, qalanları zəbt olunmuş mənzillərdə, yarımçıq qalmış tikililərdə, fermalarda, yük vaqonlarında və sadəcə olaraq, yol kənarlarında məskunlaşmışdılar ki, heç bir normal istilik, elektrik enerji təchizatı, sanitar-gigiyena şəraiti olmayan belə qaçqın məskənlərində doğulan uşaqların, onların valideynlərinin sağlamlığı daimi təhlükə altındaidi.

Yuxarı Qarabağ iqtisadi rayonunun böyük hissəsinin işğalının davam etməsi əhali coğrafiyasının bütün struktur elementlərinə güclü təsir göstərir. Artıq 1990-cı illərdən başlayaraq azərbaycanlılar, Qarabağın dağlıq və dağətəyi rayonlarından kütləvi şəkildə köçürülmüş, onların kənd və qəsəbələri yandırılmış, Xocalı soyqırmı və digər ağır faciələrə məruz qalmışlar. Hal-hazırda Ermənistan tərəfin-dən işğal olunmuş Azərbaycan Respublikası ərazilərində yalnız ermənilərdən ibarət monomilli tərkibli əhali yaşayır. Belə vəziyyət regionun milli tərkibi, demoqrafiyası və s. göstəricilərinə mənfi təsirgöstərir.

Beynəlxalq hüquq prinsiplərinə, BMT və ATƏT-in qərar və qətnamələrinə məhəl qoymayan və dünya dövlərlərinin də məsələyə biganəliyi ucbatından cəzasını hələ də almayan işğalçı Ermənistan dövləti bu gün də dünya tarixində misli görünməmiş irticaçılıqla məşğuldur.

İşğal prosesinin davam etməsi Azərbaycan Respublikasına vurulmuş zərərin ilbəil artmasını şərtləndirir. Bu da əsasən işğal ərazilərində olan təbii-iqtisadi potensialdan məhrumiyyətlər hesabına itkilərin və qaçqın və məcburi köçkün həyatı yaşayan əhalinin sosial təminatı ilə bağlı dövlət xərclərinin artması, beynəlxalq normalara zidd olaraq erməni silahlı qüvvələrinin atəşkəs rejimini pozması və bunun da əlavə insan itkiləri, yaşayış evlərinin, kənd təsərrüfatı texnikasının zədələnməsi, eləcə də becərilmiş məhsulun bir hissəsinin sahələrdə toplanılmamış qalması ilə nəticələnməsi hesabına baş verir. Aparılan sosioloji tədqiqatlardan məlum olmuşdur ki, hələ keçən yüzilliyin sonlarında turizm sahəsindən dünyada əldə olunan gəlirin həcmi ABŞ dolları ilə 450 milyardı ötüb keçmişdir. Onun inkişafının orta illik artım faizi isə 4,3 faizdən çox olmuşdur. Bunun əsassəbəbləriinsanların dünyanın öyrənilməsinə artan tələbatı, əhalinin həyat səviyyəsinin artması, nəqliyyatın, texnologiyaların, o cümlədən informasiya kommunikasiya texnologiyalarının inkişafı, qloballaşma və s.-dir.

Hazırda Qarabağda turizm, iqtisadi inkişaf proqramının əsas sahələrindən biri təşkil edir. Qondarma "DQR"-nın "turizm idarəsinin məlumatlarında son illər turizm sahəsinin inkişafına dövlət investisiyalarının artırıldığını bildirilir. Xaricdə yaşayan erməni sahibkarlar, o cümlədən əsli qarabağlı biznesmenlər tarixi abidələrin bərpasına maddi yardım göstərir, Qarabağda yeni mehmanxanalar tikirlər.

1992-ci ildə təsis edilmiş "Hayastan" Ümumerməni FonduDağlıq Qarabağda kommunikasiyaların tikintisini maliyyələşdirir. Fond xarici erməni diasporunun xeyriyyəçiliyi nəticəsində fəaliyyət göstərir. Dağlıq Qarabağa səyahət edənlərin coğrafiyası da genişlənməkdədir. Tanınmamış "respublika"nın "Xarici İşlər Nazirliyi" konsulluq xidmətinin məlumatına əsasən, hazırda Qarabağa səyahət edən Ermənistan vətəndaşlarının sayı xaricdən gələnlərin 40 faizini təşkil edir. MDB ölkələrindən başqa, Dağlıq Qarabağa Avropa İttifaqı, Amerika, Asiya, Afrika ölkələrindən səyahət edirlər. Son iki ildə İrandan gələnlərin sayı artıb. Xankəndidə tikilən yeni hava limanının işə buraxılması isə Qarabağda turizmin daha da inkişaf edəcəyinə dair ermənilərin ümidləri artırmışdı.

***Vahid Ömərov f.ü.f.d.dos.***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

27 avqust

SƏS

Son səhifə

# Ronaldo Mançesterdə otel tikdirir




İtaliyanın “Yuventus” klubunun və Portuqaliya millisinin hücumçusu Kristiano Ronaldo Mançesterdə 4 ulduzlu otel inşa edəcək. Bu barədə “Daily Mail” məlumat yayıb. Bildirilir ki, şəhərin biznes mərkəzində tikiləcək obyektin inşasına 30 milyon avrodan çox pul xərclənəcək. O da qeyd olunur ki, otelin 2023-cü ildə açılması planlaşdırılır. Otel 151 otaqdan ibarət olacaq. Bir çox xarici KİV-lər isə, artıq K.Ronaldonun “dumanlı albiom”a yön aldığını, hətdda bir zamanlar formasını geyidyi “Mançester Yunayted”ə geri qayıdacağını iddia edirlər.

# “Mançester Yunayted” bu hücumçu üçün “Barselona”ya 200 milyon avro təklif etdi!




***İngiltərənin “Mançester Yunayted” klubu İspaniyanın “Barselona” komandasının hücumçusu Ansu Fatini transfer etmək niyyətindədir. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, “qırmızı şeytanlar” 18 yaşlı hücumçu üçün Kataloniya təmsilçisinə 200 milyon avro ödəməyə hazırdır. Yaxın günlərdə ispaniyalı futbolçu üçün “Barselona”ya rəsmi təklif göndəriləcək. Qeyd edək ki, A.Fati ötən mövsüm İspaniya La Liqasında 24 oyun keçirib və 7 qol vurub.***

# Devid Bekhem arvadının kosmetikasından istifadə edir

***Dünyaca məşhur dizayner Viktoriya Bekhemin həyat yoldaşı Devid Bekhem ilə bağlı maraqlı etiraf edib. Musavat.com xəbər verir ki, Viktoriya ərinin onun hazırladığı kosmetik vasitələrdən istifadə etdiyini bildirib.***



“Yeni məhsulları satışa çıxarmazdan əvvəl ərimin üzərində test edirik. Bu, Devidin də xoşuna gəlir. O, mənim kosmetik markam üçün ən yaxşı modeldir. Pudra və kölgələrdən əlavə, cavanlaşdırıcı serumu da çox bəyənir. Bir saat əvvəl də mənə yazmışdı ki, “Serumum bitir”. Ona yenisini göndərəcəyəm”,-deyə Viktoriya sosial şəbəkədə yazıb. Qeyd edək ki, Devid dodaq balzamı və nəmləndirici kremdən istifadə etdiyini 2018-ci ildə etiraf edib.

# Qaradağda quldurluq edən keçmiş məhkum tutulub



Qaradağ Rayon Polis İdarəsinin 38-ci polis bölməsinə avqustun 25-də Sahil qəsəbəsi ərazisindəki evlərin birində Sumqayıt şəhər sakini olan qadının döyülərək 140 manat pulunun alınması barədə müraciət daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, quldurluğu törətməkdə şübhəli bilinən Sahil qəsəbə sakini, əvvəllər məhkum olunmuş N.Şəkərov polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıb. Araşdırmalarla onun avqustun 22-də yaşadığı evdə Bakı şəhər sakini olan digər bir qadını da döyərək 100 manat pulunu alması müəyyən edilib. Faktla bağlı Qaradağ Rayon Polis İdarəsində araşdırma aparılır.

# Nadir brilyantın hər karatına 2 milyon dollar



Dünyanın ən böyük lacivərd rəngli brilyantı olan “Argyle Violet” illik Rio Tinto çəhrayı almazlar sərgisində nümayişə çıxarılacaq. SİA “interfax.ru”ya istinadən xəbər verir ki, lacivərd rəngli nadir almaz 2015-ci ilin avqustunda Qərbi Avstraliyada “Argyle” şirkətinə məxsus yataqda aşkar olunub. Xam almazın çəkisi ilk öncə 9,17 karat olub, lakin üzərində çoxsaylı çatlar və cızıqlar olduğuna görə, onun cilalanmasına qərar verilib. Cilalandıqdan sonra brilyantın çəkisi 2,83 karat müəyyənləşdirilib.

“Kifayət qədər nadir Argyle Violet brilyantına gözəlliyinə, ölçüsünə və yarandığı yerinə görə çox yüksək qiymət veriləcək”-deyə “Rio Tinto Diamonds”un satış üzrə baş meneceri Patrik Koppens bildirib.

Qiymətli daşın dəyərləndirilməsi hələ ki, baş verməyib: hazırda o ABŞ-ın Hemmologik institunda (GİA) qiymətləndirilmək üzrədir. Barilyantın dəqiq rəngi isə bu cür müəyyənləşdirilib - “fantastik dərin bozumtul mavi-lacivərd”. Bu kimi təbii rəng dünyada kifayət qədər nadirdir. Ekspertlər isə deyirlər ki, qiymətli daşın hər karatına 1-2 milyon dollar təklif edilə bilər.

# Avtomobil yandı



Beyləqan rayonunda “Mercedes” markalı minik avtomobilinin salon hissəsi yanıb. SİA-nın Fövqəladə Hallar Nazirliyinin rəsmi saytına istinadən verdiyi xəbərə görə, avtomobilin qalan hissəsi və yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Tarixdə ilk dəfə: Günəş enerjisi ilə uçan təyyarədən paraşütlə tullandı



Paraşütçü tarixdə ilk dəfə elektrotəyyarədən tullanma gerçəkləşdirib. “Report” Almaniyanın WAZ nəşrinə istinadən xəbər verir ki, hadisə İsveçrənin qərbində olub. Məlumata görə, paraşütçü Rafael Domyan 1 520 metr hündürlüyə yüksələn və günəş enerjisi ilə uçan ikinəfərlik təyyarədən tullanıb. Bildirilib ki, tullanma zamanı onun sərbəst düşmə sürəti 150 km/s-a çatıb.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600